**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Azərbaycanın Xəzər sahili ərazilərində turizmin inkişaf perspektivləri" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Xudiyeva Lamiə Almaz**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**____________________imza**

**"___" _______ 2019-cu il**

**"Azərbaycanın Xəzər sahili ərazilərində turizmin inkişaf perspektivləri" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 - İqtisadiyyat**

**İxtisaslaşma: Turizm İqtisadiyyatı**

**Qrup: 80**

**Magistrant**
**Xudiyeva Lamiə Almaz**

**_______________imza**

**Elmi rəhbər**
**coğ.f.d.,dos. Qadir Bayramlı Nəzir**

**_____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d.,b.m. Hümbətova Suqra İnqilab**

**_____________________imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**_____________________imza**

**BAKI – 2019**

**The perspectives of tourism development in the Caspian seaside regions of Azerbaijan**


**Summary**

**Tourism is one of the areas in the economy that it is possible to achieve huge revenues without investing huge investments here. One of the key factors here is that the country has rich tourism recreation resources. Our topic is "The perspectives of tourism development in the Caspian seaside regions of Azerbaijan" and Among the countries that are trying to increase their share in the ever-expanding tourism market, Azerbaijan receives tourists, even though it is relatively small in percentage.**

**Our main goal is to increase our share in this market, and to increase the amount of tourists and the expense that they spend in Azerbaijan. Of course, we need to increase tourism services to a high level.**

**As we have noted, Azerbaijan has great recreation resources. Here, if we look at the Caspian coastal regions, we can group the economic zones for the spread of our recreation resources: Absheron, Aran, Guba-Khachmaz, Lankaran-Astara.**

**Located in favorable geographical position, Azerbaijan has climate, landscape, and water resources, which are important for tourism. Amount of sunny days, low clouds, flattening conditions, beaches in coastal areas, the plains, or mineral springs reveal the tourism potential of the area.**

**Previously, the role of recreation resources in tourism was analyzed in the dissertation. Later on, tourism recreational resources, geographical, economic and social conditions of the coastal area of Azerbaijan were considered.**

**The measures to be taken for tourism development, the development experience of the leading countries in tourism in the region and around the world, comparisons with and comparability with our country have been investigated.**



**Keywords: Caspian sea, recreation resources, tourism, promotion, alternative tourism**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

**BƏMMF**: Beynəlxalq Ətraf Mühitin Müdafiəsi Fondu

**ÜDM**: Ümumi Daxili Məhsul

**WTO**: World Tourism Organization

**WEF**: World Economic Forum

**WDPA:** World Database on Protected Areas

MÜNDƏRİCAT

**GİRİŞ …………………………………………………………………….........8**

**I Fəsil TURİZM REKREASİYA EHTİYATLARI VƏ ƏHƏMİYYƏTİ ...........14**

1.1. Təbii rekreasiya ehtiyatları ......................................................................15

1.1.1. İqlim ....................................................................................................15

1.1.2. Landşaft ...............................................................................................17

1.1.3. Sular ....................................................................................................18

1.1.4. Meşələr ................................................................................................19

1.2. Tarixi-mədəni rekreasiya ehtiyatları ......................................................20

1.2.1. Tarixi abidələr .......................................................................................21

1.2.2. Muzeylər ...............................................................................................22

**II Fəsil AZƏRBAYCANIN XƏZƏR SAHİLİ ƏRAZİLƏRİNİN FİZİKİ-COĞRAFİ VƏ İQTİSADİ XARAKTERİSTİKASI .........................................24**

2.1. Təbii şərait və ehtiyatlar ..........................................................................24

2.1.1. Xəzər sahili ərazilərin iqlimi ....................................................................24

2.1.2. Xəzər sahili ərazilərin su ehtiyatları ...........................................................27

2.1.3. Digər təbii ehtiyatlar ...............................................................................29

2.2. İqtisadi xarakteristikası ...........................................................................29

2.2.1. Sənaye ……………………………………………………………………31

2.2.2. Kənd təsərrüfatı ……………………………………………………..……31

2.2.3. Nəqliyyat …………………………………………………………………32

**III Fəsil XƏZƏR SAHİLİ ƏRAZİLƏRİN TURİZM–REKREASİYA POTENSİALI VƏ İSTİFADƏ PROBLEMLƏRİ .............................................37**

3.1. Çimərliklər ...............................................................................................37

3.1.1. Çimərliklərin xarakteristikası....................................................................38

3.1.2. Çimərliklərin təsnifatı ...............................................................................38

3.1.3. Çimərliklərin istifadə problemləri ...............................................................39

3.2. Meşələr ....................................................................................................41

3.2.1. Meşələrin xarakteristikası ........................................................................42
3.2.2. Meşələrin rekreasiya əhəmiyyəti ..................................................................43
3.2.3. Meşələrin ekoloji vəziyyəti ......................................................................43
3.3. Bulaqlar ..........................................................................................46
3.3.1. Quba-Xaçmaz ...................................................................................47
3.3.2. Abşeron .........................................................................................48
3.3.3. Aran ............................................................................................48
3.3.4. Lənkəran-Astara ................................................................................49
**IV Fəsil XƏZƏR SAHİLİ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAFINA DAİR TƏDBİRLƏR ............................................................50**
4.1. Azərbaycanın Xəzər sahilində turizmin inkişafına dair GZİT analizi............50
4.2. Aktiv turizm bölgələrinin potensialından istifadə ..................................51
4.2.1. Tanıtım və təbliğat ..............................................................51
4.2.2. Nəqliyyat və viza ...............................................................53
4.2.3. Ekoloji vəziyyət ................................................................55
4.2.4. Turizmdə qiymət və keyfiyyət ....................................................55
4.3. Rekreasiya potensiallı ərazilərin canlandırılması ....................................57
4.3.1. Ənənəvi turizm növlərinin inkişaf etdirilməsi ........................................58
4.3.2. Alternativ turizmin tətbiqi ......................................................59
**NƏTİCƏ VƏ TƏKLİFLƏR ..............................................................66**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ..................................................69**
Cədvəllərin siyahısı ..................................................................72
Şəkillərin siyahısı ...................................................................72

# GİRİŞ

**Mövzunun aktuallığı.** Son illərdə Azərbaycanda devalvasiya prosesi nəticəsində iqtisadi geriləmə baş vermişdir.  Bu da paralel olaraq dövlət üçün daha çox valyuta axınına imkan verən yeni iqtisadi sahələrin inkişaf etdirilməsi üçün təkan verdi. 2016-cı il 6 dekabr tarixində "Strateji Yol Xəritəsi" qəbul edilmişdir. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi də özündə bu sahəsinin problemləri və görülə biləcək tədbirləri cəmləyir ki, yaxın 5-10 il müddətində turizmin inkişafının təmin edilməsi zəruriliyini ehtiva edir.

İqtisadi inkişaf səviyyəsində Azərbaycanın Xəzər sahili əraziləri xüsusi ilə seçilir. Lakin gələn turist sayı ilə bu regiondakı rekreasiya ehtiyatlarını müqayisə etsək, müşahidə edərik ki, regionda potensial olduqca böyükdür. Lakin potensialdan kifayət qədər istifadə edilmir.

Azərbaycanın Xəzər sahili ərazilərində üzə çıxan problemlərə potensialın üzə çıxarılmaması, insan resursları ehtiyatlarının kifayət qədər və lazımi keyfiyyətdə olmaması, qiymətlərlə xidmət keyfiyyəti arasında uyğunluğun olmaması nümunə göstərilə bilər. Digər vacib problem isə turizm rekreasiya ehtiyatlarımızın tanıtım işlərinin kifayət qədər aparılmaması, nəinki əcnəbilər, həmçinin yerli əhali tərəfindən kifayət qədər tanınmaması turizm ehtiyatlarımızın daha zəif və effektsiz istifadəsi ilə nəticələnmişdir.

Ümumdünya Ticarət Təşkilatı tərəfindən yayımlanan hesabat əsasında deyə bilərik ki, 2017-ci ildə Azərbaycan 2.4 mln-dan çox turist qəbul edib. Bu statistikaya əsasən məlum olur ki, 2016-cı il ilə müqayisədə 0.4% faiz artım əldə olunmuşdur. Həmçinin ölkəmizin 2017-ci ildəki turizm gəlirləri 2016-cı il ilə müqayisədə 0.6% artaraq 3 milyard dolları keçmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına

dair Strateji Yol Xəritəsi ölkə iqtisadiyyatı qarşısında turizmin inkişafının əsas prioritetlərdən biri olduğunu bir daha təsdiq edir.

Müstəqillik siyasi, iqtisadi, sosial cəhətdən öz müqəddəratını həll etmək baxımından hər bir ölkə üçün əsas amildir. Əlbəttə, Azərbaycan üçün də müstəqilliyini qazanmaq vacib idi, lakin bu müstəqillik bizə qazandırdıqları ilə yanaşı müəyyən "itkilər" də yaşatdı. Bu itkilər dəniz turizmi sahəsində də yaşandı. Belə ki, SSRİ dağıldıqdan sonra ölkələrarası əlaqələrin qırılması məhz turizmə də zərər verdi. Xüsusilə, dəniz turizmi məqsədilə Azərbaycana gələn turistlərin sayı kəskin azaldı.

Azərbaycanın turizm potensialı böyük olsa da, ondan yetərincə istifadə edilmir. Ölkəmizin sahil xətlərinin uzunluğu 800 km-dən çox olsa da biz dəniz sahili mövqeyimizdən tam yayarlanmırıq. Sahil zolağının təqribən 40 km-lik hissəsi hazırda çimərlik turizmi üçün istifadə edilir. Azərbaycanla təqribən eyni tarixi müqəddərat yaşamış postsosialist ölkələrini (məsələn Bolqarıstan), oxşar coğrafi mövqedə yerləşən ölkələri (Türkiyə, Gürcüstan) müqayisə etsək, görərik ki, bu ölkələr öz potensialından kifayət qədər istifadə edib milyonlarla turist cəlb edir.

Bununla yanaşı, problemin siyasi aspektləri də nəzərdən qaçırılmamalıdır. 1990-cı illərdən etibarən ölkənin müharibə şəraitində olması, hələ də atəşkəsin pozulması hallarının mövcudluğu turizm obyektlərimizə qarşı tələbə ciddi təsir etmişdir. İllərdir sülh yolu ilə məsələnin həllinə çalışılsa da, hələ də nəticə əldə olunmaması bizim üçün problem yaradır. Bu, nəinki müharibə ərazisinin və ona qonşu bölgələrin, bütövlükdə ölkənin bir çox təşkilatların reytinq cədvəllində "Turistlər üçün təhlükəli ölkələr" siyahısına düşməsinə səbəb olmuşdur.

2015-ci ildə ölkəmizin milli valyutası olan manatın devalvasiyası iqtisadiyyata güclü təsir etdi. Böhrandan çıxış üçün ilkin məsələ büdcənin neft gəlirlərindən asılılığının aradan qaldırılması idi. Turizmin inkişafı isə bir çox ölkələrin təcrübəsinə görə devalvasiyanı öz xeyrimizə çevirmək üçün ən sadə yollardan biridir. Türkiyənin 1990-cı illərdəki sıxıntılı dövründə və 2000-ci illərin əvvəlində dönüş yaratması təcrübəsindən faydalana bilərik.

Məlumdur ki, turizmə bir çox alimlər “bacasız iqtisadiyyat” deyir. Çünki gəlirləri sadəcə bir sahəyə aid olmur. Həm yerləşmə, həm ictimai-iaşə obyektləri, həm müxtəlif xidmət sahələri qazanır. Eləcə də ölkəyə gələn əcnəbi turist üçün devalvasiyaya görə öz valyutası daha “dəyərli” olduğu üçün daha çox manat xərcləmiş olur. Bu məqamda Azərbaycan turistlər üçün daha cəlbedici ölkəyə çevrilir və ölkəyə valyuta axınına səbəb olur. Məhz bu iqtisadi amillərdən ötrü ölkədə turizmin inkişafı zərurəti yarandı.

Qeyd etdik ki, ölkənin turizm sektorunun inkişafı zəruri hal almışdır. Amma vacib nüanslardan biri də sosial sferadır ki, onu nəzərdən qaçırmaq olmaz. Sosial aspekt dedikdə biz öz cəmiyyətimizin, ölkə əhalisinin maraq və mənafelərini qeyd etməliyik. Məsələyə iki aspektdən yanaşa bilərik: 1. Əhalinin gəlirlərinin artımı, ölkədə məşğulluğun (həm mövsümi, həm daimi) təmin olunması, gəlir bərabərsizliyinin aradan qaldırılması yönündən yanaşsaq, turizm çox effektivdir. Turizmin inkişafı digər iqtisadi sahələr kimi mütləq şəhər mərkəzlərində yerləşməni və böyük infrastruktur şəbəkəsi tələb etmir deyə, həmçinin regionlarımızda əhalinin işlə təmin olunmasına, regionların inkişafına da təsir edir. Məsələn, dəniz və ya sağlamlıq turizminin ölkədə inkişafını təmin etsək, Bakı, Abşeron yarımadası deyil, sahilyanı regionlarda da əhalinin rifah halının yaxşılaşmasına nail ola bilərik. 2. Yerli əhalimiz turizm üçün xarici ölkələrə üz tutur. Ölkəmizdə turizmin inkişafına nail olaraq daxili tələbi qarşılayıb əhalinin xərclərini həm azalda, həm də xaricə valyuta axınının qarşısını ala bilərik.

Biz qeyd etdik ki, dayanıqlı və davamlı iqtisadi inkişaf konsepsiyasının fəlsəfi mahiyyəti planetin təbii ehtiyatlarından səmərəli və qənaətlə istifadə, ətraf mühitin qorunub saxlanılması, indiki və gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir. Bununla yanaşı davamlı inkişaf insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün planetdə sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutur.

Bu aspektlərdən yanaşdıqda Azərbaycanda dəniz turizminin inkişafının zəruri hal aldığını müşahidə edirik. Həm cari dövrdə qeyri-neft sektorunun inkişafına yönələn

diqqət, həm ölkəyə xarici valyuta axınının təmin edilməsi, əhalinin iqtisadi, sosial vəziyyətinin, rifah halının yaxşılaşdırılması məsələləri turizmin və eləcə də böyük rekreasiya potensialı olan Xəzər dənizi sahilində yerləşən ərazilərimizin turizminin inkişafını zəruri hala çevirir.

Regionda turizm potensialının kifayət qədər istifadə edilməməsini bir problem kimi qiymətləndirmək üçün onun fəsadlarını qeyd etmək yerinə düşər:

- Daha az turist cəlbi;
- Yerli əhalinin xaricə üz tutması;
- Valyutanın xaricə axını;
- Ölkə əhalisi üzrə məşğulluqda bu sahənin çox kiçik yer tutması;
- ÜDM-də turizm gəlirlərinin gözləniləndən daha az olması və s.

**Mövzunun öyrənilmə vəziyyəti.** Müstəqillik qazandıqdan sonra uzun illər, demək olar ki, turizm barəsində qanunvericilik sistemi, hüquqi mexanizm olmamışdır. Bu səbəbdən bu sahənin tənzimlənməsində problemlər yaşanmışdır. 1996-cı ildə "Turizm haqqında" AR qanunu qəbul edilmiş olsa da, qanun layihəsi 1999-cu ildən etibarən tətbiqinə başlanmışdır. 27 fevral 2007-ci il tarixli "Azərbaycan kurortları" haqqında Dövlət Proqramı qəbul edilmişdir.

"Azərbaycanda kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı" 6 fevral 2019-cu il tarixində təsdiq edilmişdir.

2016-cı il 1 sentyabr tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" AR Prezidentinin Sərəncamı verilmişdir.

Azərbaycan Respublikasında 6 dekabr 2016-cı il tarixində Strateji Yol Xəritəsi qəbul olunmuşdur. 11 Yol Xəritəsindən biri də ixtisaslaşmış turizm sənayesinin inkişafına aiddir.

Qanunvericilik sənədləri ilə yanaşı Azərbaycanın Xəzər sahili regionlarının, o cümlədən, Azərbaycan turizminin başlıca problemlərini bir çox mütəxəssislər, elmi tədqiqatçılar araşdırmışdır. Qarşıya qoyduğumuz Azərbaycanın Xəzər sahili bölgələrində turizmin inkişaf perspektivləri mövzusunda Soltanova H. 2005-ci il

“Azərbaycan Respublikası regionlarında turizmin inkişafının aktual problemləri. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi problemləri”, Qasımov M. 2007-ci il “Abşeron yarımadası əhalisinin rekreasiya təminatı”, Məmmədov E. 2013-cü il “Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri”, Soltanova H. 2015-ci il “Azərbaycan Respublikasında Turizm və Onun İnkişafı”, Həsənov A. 2016-cı il “Regional turizm komplekslərinin inkişaf strategiyasının formalaşdırılması” kimi elmi araşdırmalar aparılmışdır.

**Dissertasiya işinin metodu.** Dissertasiya işinin yazılmasında təməl iqtisadi metodlar, coğrafi, statistik metodlar istifadə olunmuşdur. İqtisadi araşdırma metodlarına analiz, sintez, induksiya, deduksiya metodlarından istifadə olunmuşdur. Coğrafi metodlardan əsasən kartoqrafik metoda üstünlük verilmişdir. Statistik metodlardan isə əsasən ikinci əldən toplanan məlumatlardan – Azərbaycan Respublikası Statistika Komitəsinin, Ümumdünya Turizm Təşkilatının, Dünya Iqtisadi Forumunun illik məruzələri və hesabatlarından istifadə olunmuşdur.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işini yazmaqda məqsəd Azərbaycanın Xəzər sahili ərazilərində turizmin inkişaf perspektivlərini üzə çıxarmaqdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirməliyik:

- Turizmdə rekreasiya ehtiyatlarının rolunu araşdırmaq;
- Azərbaycanın Xəzər sahili ərazilərinin fiziki-coğrafi və iqtisadi xarakteristikasını təhlil etmək;
- Azərbaycanın Xəzər sahili bölgələrinin turizm və rekreasiya ehtiyatlarını qiymətləndirmək;
- Xəzər sahili ərazilərdə turizmin inkişafını hədəfləyən tədbirlər təklif etmək.

**Tədqiqatın predmeti və obyekti.** Azərbaycanın Xəzər sahili ərazilərinin turizm ehtiyatlarının qiymətləndirilməsi tədqiqat işinin predmetini təşkil edir. Dissertasiya işinin obyekti isə Xəzər sahili ərazilərdə olan, aktiv şəkildə istifadə edilən, həm də potensialı olan amma turizmin inkişaf etmədiyi bölgələrdir.

**Tədqiqat işinin elmi yeniliyi və praktiki əhəmiyyəti.** Dissertasiya işinin elmi yeniliklərini aşağıdakılar təşkil edir:

- Mövzuda ekoloji problemlərə xüsusilə toxunulmuşdur, Xəzər sahili ərazilərdə çimərliklərin "mavi bayraq" alması məsələləri tədqiq olunmuşdur;
- Turizm rekreasiya ehtiyatlarımızın beynəlxalq arenada tanınmaması probleminə çarə olaraq, az xərclə konkret hədəf kütlə müəyyənləşdirilərək rəqəmsal dünyada Azərbaycanın turizm ölkəsi kimi tanıdılması məsələləri təklif olunur;
- Rəqəmsallaşma, innovasiya dövründə sahibkarlarımızın əcnəbi rəqiblərlə başabaş rəqabət apara bilməsi üçün konkret təkliflər irəli sürülmüşdür.

**Dissertasiya işinin informasiya bazası.** Dissertasiya işinin yazılması zamanı başda "Turizm haqqında" Azərbaycan Respublikasının qanunu olmaqla yerli qanunvericilik aktları, beynəlxalq konvensiyalar, iqtisadi, turizm, coğrafiya və marketinq üzrə yerli və xarici ədəbiyyatlar, həmçinin Ümumdünya Turizm Təşkilatı, Dünya İqtisadiyyat Forumu kimi bir çox beynəlxalq təşkilatların müxtəlif illərdəki statistik məcmuələrinə və eləcə də internet resurslarındakı məlumatlara əsaslanmışdır.

**İşin strukturu və həcmi.** Dissertasiya işi dörd fəsildən, giriş, nəticə və təkliflərdən ibarətdir. Dissertasiya işinin sonunda ədəbiyyat, cədvəl və şəkil siyahısı qeyd olunmuşdur.

# I Fəsil TURİZM REKREASİYA EHTİYATLARI VƏ ƏHƏMİYYƏTİ

Rekreasiya və turizm bir-biri ilə sıx bağlı olan iki anlayışdır. Rekreasiya turizmi əhatə edən bir anlayış olmasına baxmayaraq, hər turizm fəaliyyəti də rekreasiya fəaliyyəti deyil. Biznes turizmi, konqres turizmi buna nümunə ola bilər.

Rekreasiya ehtiyatları ölkədə turizmin inkişafı üçün mütləqdir. Əlverişli coğrafi mühit, təbii ehtiyatlar urbanizasiya üçün nə dərəcədə əhəmiyyət daşıyırsa, turizm üçün də bir o qədər vacibdir. Ölkənin zəngin rekreasiya ehtiyatlarına malik olması turizm üçün münbit şərait formalaşdırır. İstər sahilyanı mövqe dəniz turizmi üçün, istər mineral bulaqlar sağlıq turizmi üçün, istər meşələr eko turizm üçün, istər muzeylər, tarixi abidələr mədəni turizm üçün gərəkli rekreasiya ehtiyatlarıdır. Bu ehtiyatlar bir başa ölkənin qonaqlar üçün turizm təklifləri irəli sürməsində əhəmiyyətli rol oynayır.

**Şəkil 1. Səyahətlərin turistik məqsədləri**




**Mənbə:** Ümumdünya Turizm Təşkilatının 2017-ci il hesabatı

WTO (Ümumdünya Turizm Təşkilatı) 2017-ci il statistikasına nəzər yetirsək, görərik ki, turistlərin 55%-i istirahət, rekreasiya və məzuniyyət səbəbi ilə turistik fəaliyyətdə olurlar. Bu da böyük bir göstəricidir.

Rekreasiya ehtiyatlarını yaradılmasında insanın birbaşa iştirak edib-etməməsinə görə bu cür təsnif etmək olar: 1. Təbii rekreasiya ehtiyatları. 2. Tarixi-mədəni rekreasiya ehtiyatları.

Təbii rekreasiya ehtiyatları birbaşa təbiətdən bizə bəxş edilən ehtiyatları əhatə edir. Tarixi-mədəni rekreasiya ehtiyatları isə insan amilinin təsiri ilə formalaşan tarixi

abidələr, tikililər, tarixi və dini əhəmiyyər daşıyan əşyalar, meydanlar, həmçinin müxtəlif dövrə aid tarixi əks etdirən əşyaların toplandığı muzeyləri özündə cəmləyir. Ümumilikdə bu rekreasiya ehtiyatları turizm tələbinin formalaşması kompelks şəkildə əhəmiyyət daşıyır və turistin baş çəkdiyi ərazidə uzun müddət zaman keçirməsi, hər dəfə fərqli həyəcanlar kəşf etməsi üçün vacib rol oynayır.

## 1.1. Təbii rekreasiya ehtiyatları

Təbii rekreasiya ehtiyatları təbiətin bizə bəxş etdiyi təbii ətraf mühiti əhatə edir. İnsan əməyinin təsiri olmadan meydana gəlmiş bu nemətlər turizm üçün ilkin ehtiyat hesab olunur. Təbii rekreasiya ehtiyatları ölkəyə imkan verir ki, çox da böyük maliyyə yatırmadan turist cəlb edə bilsin. Bir çox hallarda məhz bu ehtiyatların toxunulmamış, insan amilinin təsirinə məruz qalmaması, az dəyişdirilməsi turistlər üçün onu daha çox cəlbedici edir.

“Cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsi cəmiyyətin dinamik inkişafında mühüm rol oynamışdır. İnsanın istifadə etdiyi təbii resurslar (torpaq, su, hava, faydalı qazıntılar, enerji ehtiyatları, bitki və heyvan növləri və s.) təbii sərvətlər adlanır. Təbii sərvətlərdən insan cəmiyyəti yaranan gündən bu vaxta qədər istifadə etməklə öz maddi tələbatını ödəmək imkanlarına malik olmuşdur. Təbii ehtiyatların istifadəsindən asılı olaraq onlar tükənmə ehtimalına malikdirlər.” (Cəfərova R. 2014, səh. 33)

Təbii rekreasiya ehtiyatlarından düzgün – daha az məsrəflə, onun turizm əhəmiyyəti daşıyan xüsusiyyətlərini qoruyaraq və ekoloji gərginlik yaratmadan istifadə etmək mütləqdir. Təbii rekreasiya ehtiyatlarına iqlim, landşaft, sular, meşələr və digər ehtiyatlar daxildir.

### 1.1.1. İqlim

İqlim ehtiyatları turistik destinasiyanın turistik fəaliyyətin cəlbediciliyi üçün ən önəmli amillərdən birinə çevrilmişdir. İqlimin əlverişli və turistin marağında olması daha rahat istirahət deməkdir. Məsələn, səhra, quraq iqliminin olduğu ərazilər bəzi

turistlər üçün safari turlarına destinasiya olur. Yaxud yüksək dağlıq, qarlı sahələr alpinistlər üçün qış idman turizmi destinasiyası rolü oynaya bilər. İqlim ehtiyatları istənilən mövsümdə turistik fəaliyyətlərin düzgün təşkili üçün vacib amil kimi çıxış edir. Ölkənin iqlim ehtiyatlrından düzgün istifadə etməsiu vacibdir. Məsələn, biz ölkəmizdə həçm digər bölgələrimizdə yaşayan əhalimiz üçün, həm də şimal qonşumuzun çimərlik turizmi üçün əlverişli iqlim şəraiti olmamasını müşahidə edirik. Ölkəmizdə iqlimimizi, sahil yanı ərazilərdə illik və günlük günəşli saatların çoxluğunu nəzərə alıb, bu qonşumuz üçün çimərlik turizmi üzrə marketinq siyasəti həyata keçirə bilərik. Ölkənin iqlimini nəzərə alıb, müxtəlif mövsümlərdə hər bir turistik fəaliyyət üçün ölkəni cəlbedici destinasiyaya çevirmək mümkündür. Buna görə də iqlim amili əsas rekreasiya ehtiyatı kimi daim göz önündə olmalıdır.

“İqlim dəyişmələrinin təbii və iqtisadi sistemlərə təsiri, xüsusilə bu dəyişmələrin kənd təsərrüfatı bitkilərinin yerləşdirilməsinə və onların məhsuldarlığına təsiri iqlim enerjisindən səmərəli istifadə edilməsinin ərazi fərqləri, atmosferdə sənaye tullantıları (CO2) və tozların artması ilə əlaqədar baş verən proseslər və bu proseslərin nəticəsində meydana gələn iqlim dəyişmələrinin öyrənilməsinin çox böyük praktik əhəmiyyəti vardır. İqlimi əmələ gətirən amillərin səciyyələndirilməsi, iqlimin rayonlaşdırılması, iqlimin təbii potensialının təsərrüfat nöqteyinəzərdən qiymətləndirilməsi, iqlim dəyişmələrinin informasiyası və iqlimin proqnozlaşdırılması vəzifələri müvəffəqiyyətlə həyata keçirilir.” (Həsənov T., Hacızadə Ə., 2001, səh. 59)

Yer kürəsi yaranandan bu yana iqlim bütün zaman və məkanlarda müxtəlif dəyişikliklər göstərmişdir və bu iqlimin təbii dəyişkənliyi olaraq ifadə olunur. Ancaq yaşadığımız cari dövrdə dünya iqlimi daha öncə tarixi gedişatda görülməmiş bir sürətlə dəyişir və bu dəyişimdə atmosferdəki karbon qazının tullantılarının artmasında insan fəaliyyətinin böyük rolu vardır.

Hazırda dünya əhalisi iqlim dəyişikliyinin – quru və dəniz buzlaqlarının əriməsi, orta dəniz səviyyəsinin yüksəlməsi, iqlim qurşaqlarının yerdəyişməsi, səhralaşma və

içməli suyun azalması kimi bütün dünyada təbii sistemlərə və insan həyatına təsir edəcək nəticələri ilə qarşı-qarşıya qalmışdır.

Həmçinin iqlim dəyişikliyinin dünya üzərində sosial və iqtisadi sistemlərə də müxtəlif formada təsir etdiyi müşahidə edilir. İqlim turizm üçün başlıca resursdur. Hər hansı bir destinasiyanın çoxsaylı turistik fəaliyyət üçün uyğunluğunu müəyyən edir və turistlərin destinasiya seçimlərinə əsaslı təsir edərək turizm tələbini formalaşdırır. Bütün bu faktorlara əsasən turizm iqlimdən asılı bir iqtisadi sahə sayılır və digər iqtisadi sahələrdən fərqli olaraq iqlim dəyişikliklərindən daha çox təsirlənir.

### 1.1.2. Landşaft

Landaşft amili turistik destinasiya üçün xüsusi əhəmiyyət kəsb edir.

Ərazinin landşaft quruluşunun elementləri (dağ, çökəklik və s.) turizmdə bu bölgənin cəlbediciliyi ilə fərqlənməsində rol oynayır. Bu baxımdan, Azərbaycan zəngin və füsunkar təbiəti ilə fərqlənir. “Ümumiyyətlə, Azərbaycanın 2/3 hissəsini dağlar tutur. Hesablanmışdır ki, Respublika ərazisinin 31%-i 200-1000 metr, 19.5%-i 1000-2000 metr, 6.5%-i 2000-3000 metr yüksəkliklər arasında, 1%-i isə 3000 metrdən yüksəkdə yerləşir (Böyük Qafqaz silsiləsi, Kiçik Qafqaz dağları və b.)” (Soltanova H., 2015, səh.34)

Turistik bölgənin həmin ərazi üzrə istifadə olunması nəzərdə tutulam turizm fəaliyyəti üçün əlverişli olmalıdır. Məsələn, son dövrlərdə aktuallaşan ekoturizm və macəra turizmi sevənlər üçün landşaftın özünəməxsusluğu, yaxud yüksək dağlıq ərazidən açılan gözəl mənzərəyə sahib ərazilər cəlbedicidir və landşaftın müvafiq turistik fəaliyyət üçün əhəmiyyətini bizə açıqlayır. Mövzumuz Xəzər yanı bölgələrdə turizmin inkişafını hədəfləyir və burada biz çimərlik turizminin inkişafında landşaftımızın münasibliyini – qumlu çimərliklər, yaxud dəniz turizmində gəmilər, yaxtaların sahilə yanaşmasında əlverişli landşaftın – buxtaların, limanların salınması üçün coğrafi əlverişlilik vacib rol oynayır. Sahil zolağımıza nəzər saldıq, Abşeron, Ələt, Lənkəran bölgələrində landşaftın əlverişliliyini müşahidə edirik. Yaxın illərdə bu

limanlardan kruiz turlarının təşkilində, yalnız Xəzər sahili ölkələrə yox, kanalar vasitəsi ilə dünya okeanına çıxış vasitəsi ilə Avropaya da çıxış əldə edə bilərik. Landşaftımızın əlverişliliyini nəzərə alıb dəniz turizm növləri üzrə yuxarı sıralara yüksələ bilərik.

"Təbii sərvətlərdən su, bitki və heyvanlar aləmindən fərqli olaraq torpaq sərvəti bərpa olunmur və süni torpaq yaratmaq mümkün deyildir. Torpağın mühafizəsi elmi əsaslarla aparılmalıdır. Torpağın mühafizəsinin kompleks tədbirləri bunlardır: torpaqların hesaba alınması, onun səmərəli və düzgün istifadəsi, üzərində nəzarətin olması, çirklənmədən qorunması, eroziyiya qarşı mübarizənin təşkili, suvarmanın düzgün təşkili, sanitariya tədbirlərinin təşkili və s." (Cəfərova R. 2014, səh. 91)

### 1.1.3. Sular

Turistik destinasiyanın istifadəsində əsas ehtiyatlardan biri də ərazinin sularıdır. Buraya həm içməli, balneoloji əhəmiyyət kəsb edən sular, həm su hövzələri – göl, çay, dəniz, okean suları daxildir.

Turistlər üçün destinasiyada su qıtlığının yaşanması narahatlıq verici amil kimi rol oynayır. İçməli və təmiz suyun olması vacibdir. Bununla yanaşı, hər bir ölkənin Mövzu Xəzər sahili ərazini əhatə etdiyindən su şəraitinin əlverişliliyi vacibliyi daha ön plana çıxır. Bununla yanaşı balneoloji əhəmiyyətli mineral suların olması ərazini turistik fəaliyyət üçün daha cəlb edici edir. İnsanlar sağlıq, müalicə turizmi üçün km-lər aşıb, faydalanmaqda, sağlam, gümrah bədənə sahib olmaqda maraqlıdırlar. Ölkəmizdə sahil yanı ərazilərdə kifayət qədər bu cür su rekreasiya ehtiyatlarımız var (Qalaaltı və s.).

Bunlarla yanaşı biz ölkədəki su hövzələrini – çay, göl, dəniz, okean sularını nəzərə almalıyıq. Çay turizmi, göl turizmi, dəniz və okean sularında kruizturizmi üçün bizə imkan yaradır. Düzgün infrastruktur – çayların yatağının genişləndirilməsi, buxta, liman tikintisi, müvafiq təchizatın qurulması ilə bu sahələrin inkişafına yol açılacaqdır. Dünyada "göllər ölkəsi" kimi tanınan Kanada kimi ölkələrdə göl turizmi, qayıqla, motorlu vasitələrlə turlar təşkil olunması geniş yayılmışdır. Bu cür turlar turistlərin son

illərdə olduqca marağını cəlb edir. Ölkəmizdə göl turizmi son illərdə Qubada Çənlibel göl, Şamaxıda Sakit göldə belə turlar təşkil olunur. Göllərin bu turizm əhəmiyyətini üzə çıxardıqda böyük gəlirlər əldə etmək mümkündür.

Çay turizmi də geniş yayılıb. Amazon kimi böyük yatağa sahib çaylarda hətta kruiz turları da təşkil edilir. Bir çox Avropa ölkələrində orta ölçüdə olan çaylarda çay turizmi önəm daşıyır. Bu turlarla səyahət edənlər əsasən Şengen ölkələrində rahatlıqla səyahət edə bilərlər. Ölkəmizdə, təəssüf ki, bunun üçün əlverişli sahilyanı ərazidə çaylara əsasən Kür çayını nümunə göstərmək olar. Onun Yevlaxdan Xəzərə qovuşduğu əraziyə qədər hissəsində çay turizmi inkişaf edirmək mümkündür. Lakin çay yatağı genişləndirilməli, müəyyən investisiyalar yatırılmalıdır. Dünya ölkələrinin, o cümlədən, qonşu ölkələrin təcrübəsinə əsaslanmaq olar.

Dənizə çıxışı olan ölkələr ümumilikdə digər ölkələrlə müqayisədə daha əlverişli strateji mövqe daşıyırlar. Belə ki, səyahət imkanlarını aşmağa, daha çox ölkəni gəzməyə imkan verir. Kanalların, boğazların olması kontinental mövqedə yerləşən ölkələrə dünya okeanına çıxmağa imkan verir. Məsələn, Qara dəniz sahilindən səyahət başlayan turist həm Şimal Buzlu okeanına, həm Aralıq dənizinə, həm Atlantik okeana, o cümlədən, Xəzər dənizinə asanlıqla yollana bilər. Dəniz və okean sahilində yerləşən ölkələrdə xüsusilə "3S" – Sea, sun, sand turizmi də prioritet rol oynayır. Nəzərə alsaq ki, ənənəvi turizmdə böyük pay tutan bu sahə hələ də turizm gəlirlərində əhəmiyyətli dərəcədə böyük hissə tutur. O səbəbdən ölkə üçün su ehtiyatları vacib rol oynayır.

### 1.1.4. Meşələr

Meşə ehtiyatları da ölkədə eko turizmin, macəra turizminin inkişafı üçün zəruri ehtiyatlardandır. Lakin təəssüf hissi ilə qeyd edək ki, ölkəmiz meşə sahəsi ilə əhatə olunma faiz nisbəti göstəricisinə görə geridə olan ölkələrdəndir. Ölkədə turizm üçün meşə ehtiyatlarını aktiv hala salmaq üçün mütəmadi meşəsalma işləri həyata keçirilməlidir. Qeyd edək ki, Qayana, Qviana, Braziliya, İndoneziya kimi ölkələr öz meşə sahələrində, eləcə də cəngəlliklərində turistik fəaliyyətləri ilə tanınır. Əlbəttə,

burada təkcə müşələr özü deyil, həm də flora və faunasına, nadir növlərin varlığına maraq olur. Zəhmətli və təhlükəli olmasına baxmayaraq, eko və macəra turizmi üçün müxtəlif tədbirlər, təchizatlar yaradılaraq, bu sahəyə olan maraqdan maksimum istifadə edilir. Biz də qoruqlar, yasaqlıqlar və milli parklarımız üzrə turistik fəaliyyət təşkil edə bilərik. Qeyd etmək yerinə düşərdi ki, elə ən çox turistin baş çəkdiyi Bakıda Dənizkənarı Milli Parkda da nadir flora nümunələri mövcuddur və şəhər görüntüsünə ayrı rəng, maraq qatır.

## 1.2. Tarixi-mədəni rekreasiya ehtiyatları

İnsan əməyinin və düşüncəsinin nəticəsi olaraq hazırlanmış olan hər bir şey mədəni varlıq olaraq qəbul olunur. Tarixi və mədəni nöqteyi nəzərdən mühüm əhəmiyyət kəsb edən bu dəyərlər bir tərəfdən intellektual, digər tərəfdən iqtisadi cəhətdən vacib səciyyə daşıyır. Daşımış olduğu intellektual dəyər onların heç bir qazanc gətirmədən insanlığa aid qorunmalı olmasıdır. Onların qorunması maddi gözləntilər olmadan həyata keçirilməlidir. Mədəni varlıqların daşıdığı iqtisadi dəyər isə onların gətirdiyi maddi qazancla birbaşa əlaqəlidir. Xüsusilə də son illərdə dünya turizmində baş verən yeniliklər bu tarixi mədəni varlıqların əhəmiyyətli miqdarda gəlir gətirən bir sahəyə çevrilməsinə səbəb olmuşdur.

Tarixi-mədəni rekreasiya ehtiyatları sosial amilin təsiri ilə əsrlər, minillər ərzində formalaşır və müasir dövrdə turizm dövriyyəsində xüsusi önəm kəsb edir. Tarixi-mədəni abidələrin çoxluğu həm xalqın bacarıqlı, savadlı təbəqəsinin zənginliyindən xəbər verir, həm də ölkənin təbliğat işləri ilə turizm üzərindən daha da zənginləşməsinə imkan yaradır. Tarixi-mədəni rekreasiya ehtiyatlarına tarixi abidələr, muzeylər və s. aiddir.

Tarixi-mədəni abidələri belə qruplaşdıra bilərik:

1. Binalar və ya bina qalıqları: böyük malikanələr, sənətkarların evləri, saraylar, köşklər, kilsələr, məscidlər, fabriklər, sexlər və s. Bu tikililər tək-tək və ya qrup şəklində ola bilər.

2. Tarixi hadisələrin baş verdiyi yerlər: müharibələr, dini, siyasi hadisələrin meydana gəldikləri yerlər. Qalıqlar heç olmasa belə (müharibə meydanları kimi) tarixi nöqteyi nəzərdən əhəmiyyət daşıyırlar.
3. Arxeloji tapıntılar: insanlar tərəfindən hazırlanmış, bina şəklində olmayan abidələr və ya digər inşaat nümunələri (köhnə tarla sistemləri, dəmir yolları, mədənlər və s.)
4. Müxtəlif ərazilərdən toplanmış və başqa bir yerdə - yəni hər hansısa bir muzeydə - toplanmış əşyalar. Bu qrupa açıq hava muzeyləri də daxildir. Məsələn, nəqliyyat və ya sənaye muzeyləri, keçmiş zamanlardakı texnologiyanı əks etdirən alətlərin, əşyaların başqa bir yerdə toplandığı yerlər də buraya aid edilir.

Cəmiyyətin tarixi və mədəni inkişaf dinamikasını özündə əks etdirən tarixi mədəni abidələr başqa mədəniyyətləri tanıma ehtiyacı duyan milyonlarla insanın maraq dairəsindədir. Məhz elə bu maraq dünyada mədəni turizmin inkişafına səbəb olur. İstər tarixi bir keçmiş haqqında verdiyi məlumatlardan, istərsə də ölkə iqtisadiyyatına qatmış olduğu müsbət gəlirdən dolayı tarixi-mədəni varlıqların qorunması mütləqdir.

### 1.2.1. Tarixi abidələr

Turistlərin tarixə və mədəni dəyərlərə olan münasibətini bir neçə fərqli səviyyədə qiymətləndirmək mümkündür. Bunlardan birincisi, o ölkənin tarixi və mədəni keçmişinə bağlı olaraq ortaya çıxan mədəni mirasdır. Bu mirası maddi və ya maddi olmayan formada təsnif etmək olar.  İstər maddi istərsə də qeyri-maddi bu miras cəmiyyətlərin keçmişi, tarixi gedişatı haqqında önəmli informasiya verən tarixi qaynaqlar olaraq dəyərləndirilir. Bu mədəni miras ünsürlərinin sərgiləndiyi məkanlar olaraq muzeylər və müasir mədəni mirasları əhatə edən yerləri və ya hər ikisinin eyni zamanda cəmləşdiyi destinasiyalar ziyarətçi, turist cəlb etməkdə mühüm rol oynayırlar. Eyni zamanda muzeylərlə birlikdə bəzi memarlıq nümunələri və bu nümunələrin içərisində yer alan əsərlər də mədəni dəyərlər daşıyır və bu səbəbdən də turistlərin

diqqətini cəlb edir. Bu gün dünyanın mədəni turizmində ön yerlərdə duran aparıcı ölkələrdə muzeylərə, tarixi əsərlərə olan turist tələbi bu ölkələrin mədəni turizmi haqqında məlumat verir.

Tarixi abidələri görmək üçün hər il milyonlarla turist öz yaşadığı ərazini tərk edib, hətta başqa qitələrə də səyahət edirlər. Bunlardan ən tanınmışlardan biri Misir Piramidalarıdır ki, hələ də özünə qarşı maraöını qoruyub saxlamışdır. Ölkəmizdə də kifayət qədər tarixi abidələr zəngindir. Bu istər tarixi memarlıq abidələrində, istərsə də qədimi əl işi, incəsənət nümunələrində özünü büruzə verir. (Qız qalası, Şirvanşahlar Sarayı, məqbərələr, qədim məscidlər, kilsələr və s.)  Dövlət də turistik fəaliyyətlərin artması üçün bu cür tarixi abidələrin qorunmasına, bərpasına xərclər ayırır.

### 1.2.2. Muzeylər

Muzeylər də turistlərin getdiyi yeni ölkədə, destinasiyada ən çox maraqla baş çəkdiyi yerlərdəndir. Turistlər bilavasitı muzeyləri gızırık bu ölkənin, bəzən qonşu ölkənin də tarixi inkişafından, insanların həyat fəaliyyətindən, düşüncələrindən xəbərdar ola bilirlər (Məsələn, Luvr müzeyi). Hər bir ölkənin tarixi abidələri, muzeyləri onun tarixini qonaqlara güzgü kimi yansıdır. Qeyd edim ki, ölkəmizdə tarixi abidələr, muzeylər sayca çox, məbləğ üzrə ucuz olsa da, müxtəlif xarici ölkələrlə müqayisədə hələ də çox gəlirli turizm sahəsi deyil. Müxtəlif marketinq strategiyasına xüsusilə ehtiyac var.

"Mədəni turizm tarixi mirası, musiqi, rəqs və teatr kimi nümayişləri özündə əks etdirən çoxsaylı turistik fəaliyyətləri əhatə edir" (Hughes və Allen, 2005: 176)

Burada qeyd edilən miras anlayışı özündə insanlığa aid bütün mədəni ünsürləri cəmləyir. Bunu da qeyd etmək yerinə düşər ki, mədəni turizm iştirakçıları digər turizm növlərinə qatılan turistlərlə müqayisədə daha ali təhsilli və sosial-iqtisadi cəhətdən daha yüksək səviyyədə olurlar. Nəticə etibarı ilə bu da mədəni turizmdən gələn gəlirlərin daha çox olması deməkdir.

Ölkələrin sahib olduqları mədəni varlıqlar və muzeylər ilə cəlb etdikləri turist sayı arasında düz mütənasib bir əlaqə vardır. Sadə nümunə olaraq dünyada ən çox turist çəkən ölkələrin muzey saylarını və paralel olaraq bu muzeylərə gələn turist saylarının çoxluğunu qeyd edə bilərik. Məsələn, "ABŞ 17500, Almaniya 6501, İtaliya 3790, Avstriya 2400, Braziliya 2000, İngiltərə 1850, İspaniya 1343, Fransa 1207, İsveçrə 915, Hollandiya 873 muzeyə sahibdir" (World Museums, 2015). Muzey saylarına görə sıralamada ilk yerləri tutan ölkələrin turist sayı və həmçinin də turizm gəlirlərinin olduqca yüksək olduğu müşahidə edilir.

# II Fəsil AZƏRBAYCANIN XƏZƏR SAHİLİ ƏRAZİLƏRİNİN FİZİKİ-COĞRAFİ VƏ İQTİSADİ XARAKTERİSTİKASI

## 2.1. Təbii şərait və ehtiyatlar

Dünyada əhəmiyyətli bir iqtisadi sahəyə çevrilmiş turizm bir çox ölkələrin ÜDM-lərində böyük pay tutur. Son bir ildə təqribən 1.5 milyarddan çox insan turizm məqsədi ilə səyahət etmişdir. Bu göstərici olduqca böyük bir kütlənin qonaqladığı, qidalandığı ictimai-iaşə obyektlərindən, bununla yanaşı ciddi bir şəkildə təbii ehtiyatlardan istifadə edildiyini nümayiş etdirir. Təbii ehtiyatlarının gözəllikləri, tarixi-mədəni ehtiyatları ilə yanaşı bir çox alternativ turizm növlərinin tətbiqi ilə ölkələr daha çox turist cəlb etməyə çalışırlar. Bu rəqabətdə ən uğurlu ölkə ən çox turist cəlb edən və ən çox iqtisadi qazanc əldə edən ölkədir. Ancaq təbii ehtiyatların bütövlükdə istifadəsinə icazə verən ölkələr qısa müddətli dövrdə böyük qazanc əldə etmələrinə baxmayaraq, uzun müddətli dövrdə qarşısıalınmaz problemlər ilə üzləşirlər. Rekreasiya fəaliyyətlərinin artması əl dəyilməmiş ərazilərin iqtisadi mənfəət üçün istifadəsinə gətirib çıxarır. Bu fəaliyyətlər flora və faunanın müxtəlifliyinə mənfi təsir göstərir, çirklənmə və erroziya olmaqla təbii ehtiyatlara zərər vurur. Bu kimi mənfi təsirlərə su çirklənməsi, hava çirklənməsi, səs-küy, “səs çirklənməsi”, torpaq çirklənməsi, əhali arasında sıxlıq, izdiham, ekoloji zərərlər, estetik çirklənmə və s. nümunə göstərilə bilər.

### 2.1.1. Xəzər sahili ərazilərin iqlimi

Ölkəmizin yerləşdiyi coğrafi əraziyə görə kifayət qədər əlverişli mühit, müxtəliflik göstərən iqlim, landşaft və su sahələrinə malikdir. Bu cür müxtəlifliyə səbəb öncəliklə ölkə ərazisinin subtropik və mülayim iqlim qurşaqlarının bir-birinə qovuşduğu ərazidə yerləşməsidir. Azərbaycan təbiətinin daha da gözəl olması iki iqlim qurşağında olması ilə birbaşa əlaqəlidir. İqlimi qurşağını əmələ gətirən əsas amillər atmosfer sirkulyasiyaları, günəş radiasiyaları hesab edilir. Bunlarla yanaşı relyefin xüsusiyyəti, coğrafi en göstəriciləri, okean, dəniz cərəyanları və həmçinin bir çox başqa

amillər iqlimin formalaşmasına böyük təsirlər göstərir. Azərbaycanda isə iqlimin mülayimləşməsinə daha çox Xəzər təsir göstərir. Ölkəmizin sərhədləri içərisində temperaturun orta göstəricisi Kür-Araz ərazilərində illik 14,5°C, yüksək dağlıq ərazidə isə 0°C göstəricisindən aşağı olaraq qeydə alınmışdır.

İqlim tipləri: Dünya ərazisində mövcud on üç iqlim qurşağından ikisi Azərbaycan ərazilərində yerləşir. Ölkə ərazisinin 65%-ni təşkil edən subtropik iqlim qurşağı; ölkə ərazisinin 35%-ni təşkil edən mülayim iqlim qurşağı.

Xəzərin Azərbaycan ərazilərinə düşən sahillərində hakim olan iki iqlim qurşağının tərkibində bu iqlim tipləri vardır:

Quru çöl və yarımsəhra iqlim tipi: əsas etibarı ilə mərkəzi Aran ərazilərini, Samur çayının mənsəbindən başlayaraq Qızılağac körfəzinə qədər olan Xəzəryanı ərazilər, Naxçıvanda yerləşən Arazboyu düzənliklər, Talış dağlarının qapalı çökəkliklərində hakimdir. Burada yay fəsli nisbətən isti keçir. Bəzən havanın temperaturu 42 °C-dən yüksək ola bilir.

Yay ayları quraqlıq olan mülayim-isti iqlim tipi: bu iqlim tipi daha çox Lənkəran-Astara ərazisində hakimdir. İllik yağış həcmi mümkün olan buxarlanma göstəricisinin 150-ni və bəzi hallarda daha çoxunu əhatə edir. Qış ayları nisbətən yumşaq, yay ayları mülayim-isti bəzən isə quraq, payız fəslində isə həddindən artıq yağıntılı olur.

Yağıntının mülayim şəkildə paylandığı mülayim-isti tip: Böyük Qafqazın uca dağlarının şimal-şərq hissəsində və eləcə də cənub yamacında yerləşən dağlıq meşə zonalarına səciyyəvi hesab olunur. Yağıntı mümkün buxarlanmanın 50-100%-ni təşkil etməkdədir. Bu ərazilərdə qış fəsli yumşaq, yay fəsli isə daha çox mülayim-isti olaraq qiymətləndirilir. İqlim tiplərinin əmələ gəlməsində rol oynayan başlıca ünsürlər bunlardır: atmosferdən düşən yağıntılar, havanın temperatur göstəriciləri, radiasiyanın kəmiyyəti, hava rütubətliliyi, mümkün olan buxarlanma həcmi, küləklər, buludluluq səviyyəsi, günəş radiasiya göstəriciləri.

Havanın temperaturu: Ölkə ərazisində havanın temperatur göstəriciləri və bölgələr üzrə paylanması qanunauyğun olmaqla yanaşı buraya daxil olan fərqli hava

kütlələrinin xüsusiyyətlərindən, Xəzərin müxtəlif rayonlara yaxın olub-olmamasından, ərazinin relyefindən asılıdır. Xəzər yay fəslində dənizdən təxminən 20 km məsafəyədək olan quru ərazilərdə sahil boyunca hava teperaturunu nisbətən azaldır, bu proses qış aylarında isə tamamilə əksinə müşahidə olunur. Bununla yanaşı Xəzər dənizi Mərkəzi Asiya bölgələrindən ölkəyə gələn quru, isti hava kütləsinin təsirlərini daha da yumşaldır.

**Cədvəl 1. Azərbaycanın Xəzəryanı ərazilərində havanın yanvar, iyul ayları üzrə və illik orta temperatur göstəriciləri (selsi ilə)**

| Məntəqələrin adı | Yanvar | İyul | İllik |
|---|---|---|---|
| *Düzən ərazilər* | | | |
| Xaçmaz | 1.2 | 24.6 | 12.2 |
| Bakı | 3.4 | 25.5 | 14.2 |
| Salyan | 2.2 | 26.4 | 14.6 |
| Lənkəran | 3.1 | 25.7 | 14.1 |
| *Dağətəyi və alçaq dağlıq* | | | |
| Quba | -2.2 | 21.7 | 9.8 |
| Qonaqkənd | -1.9 | 19.2 | 8.1 |
| Xızı | -1.1 | 21.7 | 10.1 |
| Şamaxı | -0.6 | 23.2 | 11.0 |
| *Orta dağlıq* | | | |
| Qırız | -5.5 | 13.9 | 4.7 |
| Qonaqkənd | -2.9 | 19.2 | 8.1 |
| Lerik | 0 | 20 | 9.8 |

**Mənbə**: Müseyibov M.Ə., Azərbaycanın fiziki coğrafiyası (1998) kitabındakı məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.

Atmosfer yağıntıları: Ölkə ərazisində atmosferdən gələn yağıntıların ən başlıca səbəbi digər ərazilərdən gələn hava kütlələrinin ölkə ərazisinə müdaxiləsi ilə əlaqəlidir.

Küləklər: Azərbaycanda ilin nisbətən soyuq aylarında fyon adlanan isti, quru küləklər əsasən dağlıq ərazilərdə, isti aylarda isə düzənlik və dağətəyi ərazilərdə ağ yellər əsir. Azərbaycanda küləyin il ərzində ortalama sürəti 5m/s qeydə alınır.

Çovğunlar: Çovğun ölkə ərazisində nadir hallarda müşahidə olunur. Bu hadisə ancaq Abşeron ərazisində qeydə alınıb. Çovğun qarla birləşərək bir sıra fəsadlar ortaya çıxarır. Güclü küləyin nəticəsində iri qar təpələri yaranır ki, bu da bütün hərəkətə öz mənfi təsirini göstərir.

**Cədvəl 2. Xəzər sahili ərazilərimizdə hündürlük üzrə düşən yağıntıların aylıq və illik miqdarı (mm.)**

| Məntəqə | Mütləq hündürlük (metr) | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | İl |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Düzən ərazilər* | | | | | | | | | | | | | | |
| Puta | -20 | 11 | 8 | 11 | 12 | 6 | 3 | 3 | 3 | 7 | 14 | 18 | 14 | 210 |
| Xaçmaz | 30 | 27 | 24 | 24 | 24 | 24 | 21 | 10 | 21 | 34 | 44 | 48 | 41 | 342 |
| Maştağa | 28 | 28 | 16 | 16 | 17 | 11 | 9 | 6 | 7 | 21 | 32 | 51 | 31 | 245 |
| Biləsuvar | 5 | 25 | 25 | 35 | 41 | 14 | 14 | 11 | 8 | 17 | 33 | 30 | 22 | 275 |
| Cəlilabad | 22 | 30 | 34 | 34 | 22 | 13 | 9 | 4 | 26 | 65 | 85 | 65 | 43 | 430 |
| Lənkəran | -20 | 77 | 84 | 94 | 53 | 28 | 27 | 16 | 64 | 165 | 226 | 163 | 114 | 1111 |
| Astara | -21 | 70 | 78 | 112 | 62 | 39 | 37 | 28 | 94 | 188 | 284 | 198 | 102 | 1292 |
| *Dağlıq ərazilər* | | | | | | | | | | | | | | |
| Şəki | 636 | 22 | 35 | 51 | 76 | 99 | 96 | 56 | 20 | 85 | 60 | 57 | 29 | 692 |
| Şamaxı | 749 | 31 | 36 | 49 | 62 | 51 | 51 | 22 | 19 | 41 | 54 | 48 | 29 | 493 |
| Quba | 615 | 25 | 23 | 33 | 41 | 50 | 59 | 33 | 40 | 78 | 57 | 53 | 31 | 527 |
| Qırız | 2000 | 15 | 20 | 29 | 49 | 73 | 93 | 49 | 34 | 59 | 39 | 20 | 10 | 490 |
| Lerik | 1100 | 35 | 45 | 45 | 40 | 60 | 30 | 12 | 24 | 96 | 90 | 66 | 36 | 500 |
| Kəlvəz | 1800 | 15 | 24 | 27 | 33 | 27 | 15 | 15 | 18 | 33 | 45 | 24 | 24 | 300 |

**Mənbə:** Müseyibov M.Ə., Azərbaycanın fiziki coğrafiyası (1998) kitabındakı məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır.

Günəş radiasiyaları: Respublika ərazisində günəşli saatların illik miqdarı 1900-3000 arası müşahidə olunmaqdadır. Ən çox Naxçıvanda Arazboyu düzənliklərdə, ən az isə Şollar düzü, Lənkəran ovalığında müşahidə edilir. Bununla yanaşı Kür-Araz, Abşeron-Qobustanın bir sıra ovalığında günəşli günlərin bol olması səbəbi ilə burada Günəş enerjisindən istifadə potensialı mövcuddur.

### 2.1.2. Xəzər sahili ərazilərin su ehtiyatları

Azərbaycanın Xəzər sahili ərazilərin su ehtiyatları dedikdə dənizin sahil hissəsi, çaylar, göllər, mineral sular başa düşülür. Burada sahil suları çimərliklər kimi rol oynayır və 800 km-lik sahil zolağını əhatə edir. Azərbaycanda çayları üç qrup üzrə təsnif etmək olar:

- Kür çayı hövzəsinə aid olan qərb və mərkəzi çaylar;
- Orta Xəzərə axan şimal-şərq çayları;
- Xəzər dənizinin cənubuna axan cənub-şərq çayları.

Çayları iki qrupa bölmək olar: düzənlik və dağ çayları.

Xəzər sahili ərazidə relyefdən asılı olaraq daha çox düzənlik çaylarına rast gəlinir. Əsasən sakit axan bu çaylar əyri-üyrü məcraya sahib olurlar.

Xəzər sahili zonada çaylardan bəhs edərkən isə qeyd etməliyik ki, az sulu çaylar üstünlük təşkil edir, bir çoxu isə yayda quruyur.

Göl ehtiyatları da çaylar kimi az suludur və əksəriyyəti yayda quruyur. Çayların yayda quruması digər sahələrə də öz mənfi təsirini göstərir.

**Cədvəl 3. Xəzərə tökülən ən iri çayların səciyyələri**

| Çay adı | Delta sahəsi, $km^2$ | Suyun axımı $km^3$ | | Gətirmə axımı, mln.t. | |
|---|---|---|---|---|---|
| | | Delta başlanğıcında | Dəniz hissəsində | Delta başlanğıcında | Dəniz hissəsində |
| Ural | 505 | 7 | 6,6 | 2,7 | 2,7 |
| Volqa | 18000 | 242 | 233 | 14 | 6 |
| Terek | 8900 | 8,9 | 8,4 | 15,2 | 11,9 |
| Sulak | 71 | 4,4 | 4 | 13,3 | 1,7 |
| Samur | 80 | 1,63 | 1,63 | 4,7 | - |
| Kür | 205 | 7,8 | 15,5 | 39,8 | 17,1 |
| Səfidrud | 1800 | 4,66 | 3,94 | 31 | 32 |
| Xaraz | 316 | 0,96 | 0,67 | 2,4 | 1,6 |
| Görgənrud | 633 | 0,47 | 0,39 | 3,1 | 2,5 |

**Mənbə**: Azərbaycan Coğrafiya Cəmiyyəti (https://gsaz.az/)

Ölkə ərazisində olan göllər mənşəyinə görə yeddi tipə ayrılır. Xəzərin sahilində olan gölləri araşdıraq.

Subasar göllər – bu tip göllər əksərən Kür çayının subasar hissələrində formalaşmışdır. Sarısu, Ağgöl, Hacıqabul, Mehmangöl və digərləri bu qəbildəndir.

Laqun mənşəli göllərə əsasən sahilyanı ərazilərdə rast gəlinir. Ölkəmizdə bu tip göllərə Ağzıbirçala və Gümüşovan göllərini nümunə göstərə bilərik.

Karst mənşəli göllərə əsasən Qobustanda rast gəlinir.

Çay hövzələrinin dəyişməsi nəticəsində meydana gələn göllər sürüşmə mənşəli göllərdir. Bu tipli göllər Respublika ərazisində əsasən Sumqayıtçay ətrafında müşahidə olunur.

Relikt yəni qalıq mənşəli göllərə isə əsasən Abşeron yarımadasında yerləşən – Masazır, Kürdaxanı, Böyükşor və həmçinin Qanlıgöl ərazilərində rast gəlinir.

Abşeronda yerləşən bir neçə axarsız, şor relikt gölləri mövcuddur. Yay fəslində bu göllərin çoxu quruyur. Daha sonra isə şoranlı olur.

### 2.1.3. Digər təbii ehtiyatlar

Digər təbii ehtiyatlara landşaft, meşələr və s. daxildir. Son illərdə mənzərə turizmi və eko turizm çox geniş yayılmağa başlamışdır ki, bu da qeyd etdiyimiz təbii ehtiyatların əhəmiyyətijni üzə çıxarır. Lakin bir müddət keçdikdən sonar bu tip təbiii ehtiyatlar zərərə uğrayır, aşınır və nəticədə turistik dəyəri azalır. Bu məqsədlə bu ehtiyatların istifadəsi zamanı itkilər, zərərlərin qarşısının alınmasına xüsusi diqqət göstərilməlidir.

Digər təbii ehtiyatlar qrupuna biz mağaraları, vulkanları aid edə bilərik. Xüsusi ilə Azərbaycan palçıq vulkanlarının sayına görə fərqlənən ölkələrdəndir. Bu təbii ehtiyat müalicəvi əhəmiyyət də daşıdığından turizm üçün olduqca əhəmiyyət daşıyır. Doğru marketinq srtategiyası ilə palçıq vulkanlarımızı daha da turizmə cəlb edə bilərik.

Mağaralar da turistlər üçün maraqlı destinasiyalardır. Mağaralar əsrarəngiz daxili ab-havası ilə, həm də tarixi qalıqların aşkar olunması ilə bağlı turistlərin diqqətini cəlb edir.

Bu sadaladığımız təbii rekreasiya ehtiyatları landşaft turizmi, ekoturizm, dəniz sağlamlıq, ekstrimal/macəra turizmi üçün mənbələrdir və doğru istifadə edildiyi təqdirdə məsrəflərə qənaət edərək böyük turist kütləsi cəlb etmək mümkündür.

## 2.2. İqtisadi xarakteristikası

Regionda istənilən bir turistik fəaliyyətin inkişaf etdirilməsi üçün təbii rekreasiya ehtiyatları nə dərəcədə əhəmiyyət daşıyırsa, bu bölgənin demoqrafik və iqtisadi xarakteristikaları da bir o qədər vacib göstəricilər kimi dəyərləndirilməlidir.

Qeyd etmək yerinə düşər ki, bölgədə əhalinin sıxlığı regiondan asılı olaraq qeyri-bərabər paylanmışdır.

Əhalinin ən çox sıx olduğu ərazilər Azərbaycan üzrə Abşeronda 400-600, Quba-Xaçmazda 70-100, Lənkəran-Astara, Siyəzən-Şabran ərazilərində 30-40, ən az isə Xızıda 10-20 nəfərdir. Xəzər sahili ərazilərdə məskunlaşmış əhalinin təqribən 75%-ə qədəri Abşeronun payına düşür, əhalinin orta sıxılığı burada 500 nəfərə çatır.  Sahilyanı digər ərazilərdə əhalinin orta sıxılğı 70-100 nəfərdir. (İsmayılov Ç. S.98)

**Şəkil 2. Xəzər sahili ərazilərdə əhalinin sıxlığı**




**Mənbə:** Çingiz İsmayılov, “Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası”, s.98.

Ölkəninin də iqtisadi xarakteristikaları – sənaye sahələri, kənd təsərrüfatı və həmçinin də nəqliyyat daxildir.

Regionda istənilən bir turistik fəaliyyətin inkişaf etdirilməsi üçün təbii rekreasiya ehtiyatları nə dərəcədə əhəmiyyət daşıyırsa, bu bölgənin iqtisadi xarakteristikaları da bir o qədər vacib göstəricilər kimi dəyərləndirilməlidir. Belə ki, biz istənilən bir sahəni inkişaf etdirmək istəyiriksə, regionda iqtisadi mühitin əlverişliliyini öyrənmək məqsədi ilə sənayeni, kənd təsərrüfatını və həmçinin də bölgənin nəqliyyat sferasını araşdırmalıyıq.

### 2.2.1. Sənaye

Ölkə ərazisində turizm sektorunu inkişaf etdirmək üçün sənayenin mövcud vəziyyətini araşdırmalıyıq. Belə ki, sənaye sektorunun inkişaf səviyyəsindən asılı olaraq iqtisadi fəal əhalinin maraqları, onlarda turizm tələbinin formalaşdırılması barədə fikirlər irəli sürmək olar. Bildiyimiz kimi iqtisadi fəal əhalinin yarıdan çoxu məhz sənayedə çalışır. 40%-dən çoxu isə kənd təsəssürafatında çalışır. Paytaxt Bakıda sənaye müəssiələrinin böyük çoxluğu yerləşdiyindən, sahil regionundakı əhalinin daha böyük hissəsi paytaxtdakı sənaye müəssisələrində çalışır. Son illərdə elm, texnologiyanın inkişafı sənayenin də inkişafına təkan göstərmişdir.

Bəzi hallarda bölgədə sənayenin inkişafı turizm sektoruna mənfi təsirlər də göstərə bilir. Belə ki, kiçik bir araşdırma aparsaq alınan nəticələrdən müşahidə edərik ki, hal-hazırda bir sıra inkişaf etməkdə olan ölkələrdə sənaye sisteminin düzgün şəkildə qurulmaması, sənaye tullantılarının birbaşa olaraq atmosfer, biosfer və eləcə də hidrosferə atılması, tullantıların bir çox hallarda təkrar istifadəyə cəlb edilməməsi bu ölkələrdə turizm tələbinin və təklifinin azalmasına təsir göstərmişdir.

### 2.2.2. Kənd təsərrüfatı

İqtisadi fəal əhalininin böyük bir qismi də məhz aqrar sektorda çalışır. Aqrar sektorun turizm üçün əhəmiyyəti ondan ibarətdir ki, həm ərzaq təhlükəsizliyinin təmin edilməsində, həm də regionda aqroturizmin inkişafı üçün baza rolunu oynayır. Dünya ölkələrində qlobal bir problemə çevrilmiş ərzaq təhlükəsizliyi əhalinin sağlam yaşaması üçün gərəkli kəmiyyət və keyfiyyətdə qida qəbul etməsi, bu qidaların sağlam olması, GMO məhsullardan uzaq durulması, aclıq və səfalətin qarşısının alınması vacib məsələlərdəndir. Kənd təsərrüfatının inkişafı isə bu problemlərin aradan qaldırılması üçün başlıca əhəmiyyət daşıyır. Kənd təsərrüfatının nisbətən yaxşı inkişaf etdiyi ölkələrdə ərzaq təhlükəsizliyi təmin olunur, həm yerli əhalinin, həm də ölkəyə gələn əcnəbi turistlərin rifah səviyyəsinə olduqca müsbət təsirlərini göstərməkdədir.

“Respublikamızda aqroiqlimşünaslığın inkişafı nəticələrindən biri 1994-cü ildə nəşr edilmiş “Azərbaycan Respublikasının aqroiqlim atlası”-dır. Bu atlas 125 rəngli xəritədən, çoxlu əlavə yardımçı materiallardan ibarətdir. Bu atlasın əməli əhəmiyyəti isə aqroiqlim ehtiyatlarının düzgün qiymətləndirilməsi, respublikanın istənilən rayonunda aqroiqlimünsürlərinin paylanması, iqlimin məhsuldarlığı haqqında kənd təsərrüfatında çalışan işçilərə dəqiq sorğu məlumatı verməsidir. Ə.C.Əyyubovun rəhbərliyi və iştirakı ilə hazırlanan bu atlas 1994-cü ildə Z. Tağıyev mükafatına layiq görülmüş və yenə də bu müəllifin iştirakı ilə Azərbaycan Respublikasının iqlim-kurort sərvətləri hərtərəfli öyrənilməyə başlanmışdır.” (Həsənov T., Hacızadə Ə., 2001, səh 78.)

Kənd təsərrüfatının inkişaf tendensiyalarına nəzər salsaq, intensiv artım metodlarından, yəni kəmiyyətcə deyil, keyfiyyət baxımından yeni növ bitkilərdən, məhsuldar heyvan cinslərindən istifadə olunduğuna görə kənd təsərrüfatında daha sürətli şəkildə irəliləmə müşahidə edilir.

Kənd təsərrüfatı paytaxtdan kənar bölgələrdə daha aktivdir. Son illərdə fermer və sahibkarlara diqqət və qanunvericilik üzrə güzəştlər olması, bu sahənin inkişafına töhfə vermişdir. Qeyd edək ki, kənd təsərrüfatı aqro-turizmin inkişafı üçün önəm kəsb edir.

### 2.2.3. Nəqliyyat

Nəqliyyat, tarix boyu turizmin inkişafında son dərəcə vacib bir rol oynamışdır. Assuriyalılar, şumerlər, çinlilər və misirlilər quru yolu, finikiyalılar dəniz yolu ilə yeni ölkələrə çatmışlar, fərqli mədəniyyətlərlə qarşılaşmışlar və ən vacibi ticarət ehtiyacını duyaraq mal axımını həyata keçirmişlər. Bu yeni üfüqlər vasitəsi ilə dünya getdikcə kiçilmiş və sivilizasiyalar bir-birinə yaxınlaşmış, mədəniyyət alış-verişi gerçəkləşmiş, yeni nəqliyyat yolları və imkanları inkişaf etmişdir.

Turizm sənayesi dünyanın ən sürətlə böyüyən və inkişaf edən iqtisadi fəaliyyətlərindən biridir. Son illərdə nəqliyyat sektoru və rabitə texnologiyalarındakı inkişaf, mənfəətin artması, turist seçimlərində görülən dəyişikliklər kimi faktorların

təsiri ilə turizm sənayesində olduqca çox sosial dəyişmələr meydana gəlmişdir. Hazırda turistlər istədikləri destinasiyalara müxtəlif nəqliyyat vasitələri ilə asanlıqla çata bilməkdədir və fərqli ölkələrin mədəniyyətlərindən xəbərdardırlar.

Turizm insanların səyahət ilə bağlı fəaliyyatlərindən ibarətdir. Başqa cür desək, elə "səyahət etmək" turizmin özünü təşkil edir. Bu vəziyyət turizm və nəqliyyat arasındakı qarşılıqlı əlaqənin əhəmiyyətini üzəçıxarır. Turizmin inkişafı daha yaxşı nəqliyyat imkanlarını tələb edərkən, nəqliyyat xidmətlərinin inkişafı da turizmi təşviq edir.

**Cədvəl 4. Nəqliyyat sahəsində yaşanan texnoloji yeniliklər və turizmə təsiri**

| Texnoloji inkişaf | Turizmə təsiri |
|---|---|
| Təkərli arabanın kəşfi və ibtidai yolların çəkilməsi | İqtisadi aktivlərin təsir sahəsinin genişlənməsi və səyahətlərinin ölçülərinin və sərhədlərinin genişlənməsi |
| Səkiləri olan daha müasir və üstü örtüklü keyfiyyətli yolların çəkilməsi | İllik tətillərin başlaması, daxili bölgələrə və sahillərə səyahətlərin artması, yol şəbəkəsinin qurulması |
| Dəmir yolunun və motorlu vasitələrin kəşfi | Müasir kənd sahələrinin inkişaf etdirilməsi, mütəşəkkil turların başlaması |
| Təyyarənin kəşfi və böyük gəmilərin istehsalı | Kütləvi turizmi, daha az sıxlıq gərəkdirən alternativ turizm növlərinin inkişafı |

**Mənbə:** Duval, David Timothy (2007). Tourism and Transport Models, Networks and Flows. Ontario: Channel View Publications, s.10.

Nəqliyyatin tarixi təqribən insanlıq tarixi qədər qədimdir. Çünki nəqliyyat əvvəllər gəzmək və daha sonralar isə müxtəlif növlərdə inkişaf edərək hər dövrdə yaşamımızın ayrılmaz hissəsi olmuşdur. Nəqliyyatın inkişafı, şübhəsiz, burada verilən məlumatlardan daha çox əhatəlidir. Burada daha çox nəqliyyatın inkişafının turizmin inkişafına olan təsiri göstərilmişdir. Quru yolu, dəniz yolu, dəmir yolu və hava yolu bölmələrində əlaqəli dövrlər daha çox detallı şəkildə göstərilmişdir. Nəqliyyat sahəsində yaşanan yeniliklər turizmə bir-başa təsir göstərmişdir. Məsələn, Avropada sənaye inqilabından sonra dəmir yolunun inkişafı ilə daxili turizm başlamış, XX əsrin II yarısından sonra quru yollarındakı şəxsi vasitələrin sayının artması ilə müşayiət olunmuşdur. İkinci dünya müharibəsi sonrası reaktiv təyyarə texnologiyasındakı yeniliklər tur operatorlarının bilavasitə cədvəllərlə uçuşlar həyata keçirməklə

kütləvisəyahətlərin əsasını qoymuşdur. Nəqliyyat ilə əlaqəli texnoloji yeniliklərin turizmdə yansıması Cədvəl 2-də göstərilmişdir.

Nəqliyyat növü seçimində nəqliyyatın xarakteri və nəqliyyat növləri araşındakı əlaqəni, nəqliyyat növlərinin verdiyi imkan və təcrübələri anlamaq vvacibdir. Məsələ turizmdə nəqliyyat olduqda, 4 əsas daşıma forması təsnif edilir:

Quru yolu nəqliyyatı. Hər şeydən əvvəl, quru yolları qısa səyahətlərə az sıxlıqda imkan versə də, nəqliyyat növləri arasında ən məşhurudur. Quru yolu nəqliyyatında şəxsi vasitələr ən yayılmış və səyahət edənlərə əhəmiyyətli üstünlüklər verən nəqliyyat növüdür. Kirayə vasitələr isə destinasiya daxilindəki daşınmanı reallaşdırmada ən çox seçilən yoldur. Taksi də çox yayılmış quru yolu nəqliyyat növüdür. Avtobus səyahəti isə turistlərin təşkil edilmiş turlarda olduğu kimi fərdi səyahətləri üçün də seçdiyi bir nəqliyyat növüdür. Velosiped əsasən destinasiya daxili daşınmada istifadə edilsə də, son illərdə destinasiyalar arası səyahətlərdə də seçilən bir nəqliyyat növü olmağa başlamışdır. Quru yolunun ən önəmli xüsusiyyəti isə qapıdan-qapıya prinsipi ilə işləməsidir. Məsələn, böyük həcmli yüklər digər nəqliyyat növləri ilə daşınsa da ən sonda onu quru yolu nəqliyyatı vasitəsi ilə digər məntəqələrə paylayırlar. Bu da kifayət qədər əlverişli üsul sayılır.

Dəmir yolu nəqliyyatı. Dəmir yolları ictimai səyahətlərin başlıca nəqliyyat vasitəsi olmasına rəğmən, seçim fazini digər növlərə nisbətdə azaldığı müşahidə edilməkdədir. Məsələn, hər nə qədər dəmir yolları rahat, təhlükəsizlik, etibarlılıq və destinasiyaya daşınma mənasında bir çox üstünlüyə sahib olsa da, Avropada dəmir yolları az xərcli hava yolları qarşısında tələni itirməkdədir. Turistlərin dəmir yollarına üstünlük verərkən fərqli seçim formaları mövcuddur. Trans-Sibir misalındakı kimi uzun səyahətlər üçün sənaye mirası kimi buxarlı qatarlarla nostalji turlarını əhatə edən özəl və mədəni turlar da təşkil olunur. Bununla yanaşı, tur operatorlar Hindistanda qatar ilə səyahət kimi tematik turlar da təklif edirlər.

Dəniz və daxili su yolları nəqliyyatı. Dünya yük nəqliyyatının yarıdan çoxu dəniz yolları ilə daşınır. Böyük həcmli yüklər və konteynerlərin etibarlı daşınması üçün dəniz

yolu nəqliyyatından istifadə olunur. Dəniz yolu nəqliyyatı quru yolu, dəmir yolu və hava yolu nəqliyyatından daha sərfəlidir. Dəniz yolu nəqliyyatından əsasən yüklərin daşınması üçün istifadə olunsa da bu nəqliyyat növü sərnişin daşıma ilə də məşğul olur. Belə ki, kruiz səfərlərini bura misal göstərə bilərik.

İkinci dünya müharibəsinin sonuna qədər su yolları turizm mövqeyindən nəqliyyatın ana ünsürü olmuşdur. Hazırda isə su üzərindəki vasitələr artıq əsas daşımanı həyata keçirməklə yanaşı, bundan əlavə özləri də yaxtalar, kruiz gəmiləri kimi turistik məqsədlə fəaliyyət göstərirlər. İki destinasiya arası dəniz və daxili su yolu ilə nəqliyyatın ən məşhur növü feribotla səyahət etməkdir. Feribotla vasitə daşıması gün aşırı qonaqlamağa imkan verən böyük ölçüdə və hidrofilli olmaqla kiçik ölçüdə reallaşır. Digər tərəfdən kruiz gəmiləri də günbəgün tələbi artmaqda olan turizm növüdür.Ağdəniz, Cənub Sakit Okean və Qıraib dənizi başlıca istiqamətlər olsa da, Cənub Okeanı və Antarktika gibi destinasiyalar da bu istiqamətlərə daxil olmuşdur.

Hava yolu nəqliyyatı. Hava yolu nəqliyyatı son illərdə texnologiyanın inkişaf etməsi, yeni hava limanlarının tikilməsi və təyyarə saylarındakı artımla bərabər hər keçən gün daha çox dəyər qazanmaqdadır.

Hava yolu nəqliyyatı destinasiyalara səyahət zamanı çatma vaxtını dəfələrlə qısaltdığı üçün turistlər tərəfindən bu nəqliyyat vasitəsi digərləri ilə müqayisədə daha da geniş istifadə olunur. Hava yolu nəqliyyatında yaşanan inkişaf və turistlərin tələb səviyyəsindəki dəyişikliklərlə birlikdə daxili və xarici destinasiyalara təyyarə səfərləri başladılır. Hava yolu nəqliyyatı sadəcə xarici turizmi deyil, daxili turizmə az da olsa təsir göstərməkdədir.

Kütləvi turizmin başladığı 1950-ci illərdə başlayan hava yolu nəqliyyatı, xüsusilə dənizi aşmaqla və ya uzaq məsafəli səyahət imkanını artıran bir nəqliyyat npvüdürş Tur paket olaraq adlandırılan və yer xidmətlərinin özündə təşkil edən mütəşəkkil səyahətlər zaman faktorunu vacib tutan insanların ən çox üstünlük verdiyi nəqliyyat növüdür. Turizm və hava yolu münasibətlərinin yarandığı vaxtdan bu günümüzə qədər fasiləsiz

inkişafı hər iki sektorun da yenilik və inkişafa açıq və bir-birinə bağlı olmasına əsaslanır.

Nəqliyyat üzrə sahil yanı ərazilər olduqca yaxşı inkişaf etmişdir. Quru, hava və su yolları burda çox aktivdir. Ölkəyə daxil olan turistlərin böyük çoxluğu məhv Xəzər sahili ərazilərdəki nəqliyyat xətlərindən istifadə edirlər. Dəmir yolları, (o cümlədən, sürət qatarları xətləri) avto yollar, hava limanları, dəniz limanları turizmin inkişafı üçün baza rolunu oynayır.

Ölkəyə gəlmək istəyən turistlərin viza və nəqliyyat problemləri yaşaması. Belə ki ölkəmizə gələn xarici turistlər viza alınması və müddəti məsələsində müəyyən çətinliklər yaşayırlar. Həmçinin hava nəqliyyatı xidmətlərinin kifayət qədər baha olması, bununla yanaşı alternativlərin mövcud olmaması, dəniz nəqliyyatının ölkədə yaxşı inkişaf etməməsi müəyyən problemlər yaşadır.

## III Fəsil XƏZƏR SAHİLİ ƏRAZİLƏRİN TURİZM REKREASİYA POTENSİALI VƏ İSTİFADƏ PROBLEMLƏRİ

### 3.1. Çimərliklər

Çimərliklər su sahillərində yerləşən quru ərazilərdir. Çimərliyin tərkib hissələri olaraq qum, çınqıl, qaya və s. nəzərdə tutulur. Bununla yanaşı balıq qulaqları və yosunlar kimi bioloji varlıqlar da çimərliyin tərkib hissələri kimi nəzərdə tutula bilər. Bəzi çimərliklərdə xilasetmə məntəqələri, soyunub-geyinmə otaqları, duşlar, kafe-barlar kimi infrastrukturlara sahibdir.

**Şəkil 3. Azərbaycanın sahilyanı ərazilərində əhalinin sıxlığı**




**Mənbə:** Çingiz İsmayılov, "Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası". s.93.

Həmçinin çimərliyə yaxın ərazilərdə kamplar, düşərgələr, otel, hostel, restoran məkanları da fəaliyyət göstərir. İnkişaf etməmiş və ya kəşf edilməmiş çimərliklər olaraq bilinən "Vəhşi çimərliklər" bu xüsusiyyətlərə sahib deyil, toxunulmayan gözəllikləri, möhtəşəm təbiəti ilə seçilir.

### 3.1.1. Çimərliklərin xarakteristikası

Çimərlik insanların istirahət üçün üz tutduğu, istirahət, üzmək və günəş vannası qəbul etdiyi dəniz və ya okean sahili ərazilərdir. Hər sahil yanı ərazi də çimərlik sayılmır. Ərazinin qiymətləndirilməsi, turizm potensialının müəyyənləşdirilməsi zamanı günəşli günlər, buludluluğun az olması, suyun tepmperaturu, il ərzində ərazidən turizm üzrə faydalanmağa imkan verən günlərin sayı, çimərlikdə suyun təmizliyi kimi parametrlər əhəmiyyət daşıyır.

Çimərliklər adətən dalğalar və ya cərəyanların gətirdiyi relyef çöküntüləri olan sahələri əhatə edir.

Həmçinin qeyd edək ki, sahil dedikdə bir çox hallarda çimərlik sözü ilə eyniləşdirilir. Lakin bu tam olaraq belə deyildir. Çimərlik dedikdə həmçinin gölün və ya çayın çimmək üçün nəzərdə tutulan əraziləri də bu kateqoriyaya daxildir.

### 3.1.2. Çimərliklərin təsnifatı

Çimərliklər bir çox parametrlərinə görə təsnif edilir.

Çimərliklər girişin sərbəstliyinə görə 2 qrupa bölünür:

1. İctimai;
2. Şəxsi.

İctimai çimərliklərə hər kəs heç bir məbləğ ödəmədən rahat daxil ola bilər. Şəxsi, yəni özəl müəssisə tərəfindən idarə edilən çimərliklərə isə giriş ödənişlidir. Azərbaycanda bu tip çimərliklərə Amburan, Mambo, "Dalga Beach-Aqua Park", Nar & Sharab, Atlant və digər ailəvi istirahət məkanlarını nümunə göstərə bilərik.

Qeyd edək ki, ictimai çimərliklərdə suyun təmizliyi, çimərliyin təmizliyi, ekoloji vəziyyət gərgindir. Bu ərazilərdə təmizləmə işləri zəif həyata keçirilir.

Özəl çimərliklərdə isə müştəri məmnunluğu təmin edilməsi məqsədi ilə təmizliyə, xidmət səviyyəsinə xüsusi nəzər yetirilir. Nəticə etibarı ilə əhali və turistlər buraya daha çox üz tutur.

Xəzərin qərb sahillərini əhatə edən çimərliklərimizi bu formada təsnif edə bilərik:

1. Yalama-Nabran
2. Abşeron
3. Lənkəran-Astara

### 3.1.3. Çimərliklərin istifadə problemləri

Ölkəmizdə olan çimərliklərdən istifadə zamanı yerli əhalinin və turistlərin qarşılaşdığı əsas problemləri 3 qrupa bölə bilərik.

1. Sahilə atılan plastik və qida artıqları
2. Xəzərə axıdılan çirkab suları
3. Neftlə çirklənmə

Turistlər sahil ərazilərində istirahət zamanı istifadə etdikləri əşyaları çimərliyin təmizlik qaydalarına riayət etmədən bir çox hallarda birbaşa çimərliyə atırlar. Bu tullantıların böyük bir qismini ekoloji tarazlığın pozulmasına səbəb olan plastik məhsullar və bununla yanaşı qida artıqları təşkil edir.

Hər il xəzər dənizinə 40-50 $km^3$ çirkab sular axıdılır, bunun böyük bir qismi isə Volqa çayı vasitəsilə axıdılır. Lakin bununla yanaşı Xəzər dənizinin çirklənməsində Kür çayı da az rol oynamır. Tiflis və Rustavinin, həmçinin orada yerləşən sənaye obyektlərinin çirkab suları, bununla yanaşı aqro sferada istifadə edilən toksiki maddələr Kür çayı ilə Xəzərə daxil olur. Emal edilməmiş sənaye tullantıları, obyektlərdən axıdılan çirkab suları, dəniz və çay gəmiçiliyi, dənizdə dərinləşdirmə işlərinin aparılması, uzaq zonalardan hidrosfer və atmosfer ilə çirkli maddələrin hərəkəti nəticəsində Xəzər suları kifayət qədər zərər görür.

Dünyada qara qızıl vətəni olaraq şöhrət qazanmış Bakı neft ilə yanaşı ekoloji problemlərin də məskəninə çevrildi. Azərbaycan qədim neft ölkələrindən sayılır, ölkəmizdə sənaye üsulu ilə neft çıxarılmasının 160 illik tarixi var. Xəzər dənizində neftin açıq fontan üsulu ilə çıxarılması 60 ilə yaxın müddətdə sahil və quru ərazilərinə

neft artıqlarının atılması, qəza hallarında neft ilə yanaşı digər sənaye tullantılarının da atılmasına səbəb olmuşdur. Xəzərə neft tullantılarının atılmasının qarşısının alınması məqsədi ilə burada çalışan şirkətlər ekoloji və təhlükəsizlik qaydalarına riayət etməlidir. Bununla bağlı ölkəmizdə bir çox qərarlar, konvesnsiyalar vardır. Ölkəmizdə fəaliyyət göstərən əsas böyük BP, SOCAR kimi neft şirkətlərində bu qaydalara riayət edilir.

"Mövsümilik təsirləri turist bazarında müvazinətliliyi və davamlılığı saxlamaq üçün istifadə olunan tədbirlərin planlaşma və idarə olunması sistemini və üsullarını turist bazarının inkişafı konsepsiyasının hazırlanmasını tələb edir." (Q.Ə.Əlirzayev, 2015, s. 65).

Mavi bayraq 44 ölkədə fəaliyyət göstərən Beynəlxalq Ətraf Mühitin Müdafiəsi Fondunun (BƏMMF) müəyyən kriteriyalara sahib olan çimərlik və dəniz limanlarına verdiyi mükafatdır. Bu layihə Avropa Birliyinə üzv ölkələrdə üzmək, çimmək məqsədi ilə istifadə olunan göl və dəniz suları üçün gərəkli olan su keyfiyyətini müəyyənləşdirən mikrobioloji parametrlərin, yol göstərici və icbari şəkildə tətbiq edilən tələblər nəticəsində meydana gəlmişdir.

Mavi bayraq kampaniyasına qoşulma könüllülük prinsipi əsasında baş verir. Qatılmaq istəyən ölkələr öncədən beynəlxalq münsiflər heyyətinə lazımi sənədlərlə müraciət edir. Münsiflərin münasib hesab etdiyi çimərlik və limanlar BƏMMF-na göndərilir. Fond beynəlxalq münsiflər heyətini toplayır və müxtəlif ölkələrdən gələn müraciətləri dəyərləndirərək qərar verir.

Çimərliklər üçün 27, limanlar üçün isə 22 kriteriya 4 əsas qrupda təsnif olunur:

1. Üzmək və çimmək məqsədi ilə istifadə olunan suyun keyfiyyəti;
2. Ətraf mühitin öyrənilməsi və məlumatlandırma işlərinin həyata keçirilməsi;
3. Çimərlik infrastrukturu və təhlükəsizliyin təmin olunması;
4. Ətraf mühitin idarə olunması.

Mavi bayraq mükafatı bir il müddətinə verilir. Layiq görülmüş çimərlik və limanlarda mövsüm ərzində yoxlamalar həyata keçirilir. Yoxlamalar zamanı mənfi bir hal baş verdiyi təqdirdə problem həll olunanadək mavi bayraq endirilir.

**Şəkil 4. 2018-ci il beynəlxalq mavi bayraqlı çimərlik sayı (şimal yarımkürəsi ölkələri)**




**Mənbə:** Mavi Bayraq Türkiyə (http://mavibayrak.org.tr)

2018-ci il göstəricilərinə əsasən mavi bayrağa sahib ölkələrin sıralanması bu ardıcıllıqladır: 1. İspaniya – 590, 2. Yunanıstan – 519, 3. Türkiyə – 459, 4. Fransa – 399, 5. İtaliya – 368.

### 3.2. Meşələr

Azərbaycan ərazisinin təqribən 11%-ni meşələr əhatə edir. Əsasən dağlarda yayılmış meşələr Böyük və Kiçik Qafqazın 500 metrdən 2000 metrə qədər olan əraziləri əhatə edir. Enliyarpaqlı meşələr nisbətən üstünlük təşkil edir. Bununla yanaşı Talış dağları yamaclarında 500-1100 metrdən 1500-1800 metrə qədər əraziləri meşələrlə örtülmüşdür. Turizm üçün turizm nöqteyi nəzərindən landşaftın nə qədər cəlbedici olduğunu qiymətləndirmək əhəmiyyət kəsb edir.

Ərazilərin görünüşünün keyfiyyəti, təbiətin gözəlliyinin insanların psixoloji vəziyyətinə təsir səviyyəsini müəyyən etmək turistlər üçün komfortlu istirahətin təşkilində vacib əhəmiyyət kəsb edir.

Azərbaycanın Xəzər sahili ərazilərində meşə sahəsi əsasən Quba-Xaçmaz, Lənkəran-Astara ərazilərində sıx mövcuddur. Aran və Abşeron zonasında iqlim və relyefdən asılı olaraq meşə sahələri nisbətən azlıq təşkil edir. Statistik göstəricilər bunu deməyə imkan verir ki, meşə sahələrinin üstünlük təşkil etdiyi ərazilərdə gələn turist sayı nisbətən daha çoxdur.

### 3.2.1. Meşələrin xarakteristikası

Meşə, əsasən, müəyyən bir hündürlük və ölçüdə olan müxtəlif ağaclar, kollar, ot bitkiləri, göbələklər, həşəratlar, mikroorqanizmlər və heyvanları olan torpaq ekosistemidir.

2000-ci ildə dünyanın ümumi meşə sahəsi 3,869 milyon hektar olmuşdur və meşə sahəsinin dünyanın ümumi torpaq sahəsinə nisbəti 29,6% təşkil edir.

Meşələrin bir çox növü vardır və onların hər biri müxtəlif xüsusiyyətlərə malikdir. Bunlara ekvatorial meşələr, mangrov meşələri, tropik bitki örtüyünün hakim olduğu meşələr və s. nümunə ola bilər.

Meşənin əsas faydası kimi müxtəlif biznes və sənaye sahələrində xammal kimi məhsulların istifadəsini qeyd edə bilərik. Tikinti, kimya və digər sənaye müəssisələrində taxta xammalın istifadə edilməsi günbəgün artmaqdadır. Oduncaq xammalının bu cür əhəmiyyət qazanmasının səbəbi, texnoloji xüsusiyyətlərinə və davamlı şəkildə reproduksiyasına bağlıdır.

Texnologiyanın inkişafı və elektrik enerjisi, neft və kömür kimi müxtəlif enerjili materialların mövcudluğuna baxmayaraq, ağac yanacaq kimi vacibdir. Dünyanın ağacının istehsalının təxminən 50% -i yanacaq olaraq istifadə edilir və bu nisbət xüsusilə inkişaf etməkdə olan ölkələrdə 80% -ə çatır.

Meşələrin ikinci vacib cəhəti kimi ondan hazırlanan parfümeriya, boya, dərman, dəri və izolyasiya materialları qeyd oluna bilər. Azərbaycanda bu sahə demək olar ki inkişaf etməmişdir.

### 3.2.2. Meşələrin rekreasiya əhəmiyyəti

Meşə sərvətləri Respublikamızda vacib rekreasiya ehtiyatları kimi qiymətləndirilir. 140-a yaxın bitki növü "Qırmızı kitaba" salınmışdır. Onlardan 49-u kol və ağaclardır. Respublika ərazisinin 989.3 min hektarı meşələrlə örtülüdür. Azərbaycanda qeyri-bərabər şəkildə meşələr paylanmışdır. Zəngin flora və faunaya malik olmasına baxmayaraq, Azərbaycan meşə sahəsi cəhətdən kasıb ölkələrdən hesab olunur. Belə ki, Kür sahili əraziləri əhatə edən Tuğay meşələrinin son illərdə 80%-ə qədəri qırılmışdır. Günümüzdə dağ və dağ ətəyi meşələrin sistemsiz şəkildə qırılması müşahidə edilir ki, bu da kurort rekreasiya ehtiyatlarımızın azalması deməkdir. Meşələr turistlərin axını, onların təbiətlə iç-içə, təmiz havada rahat mühitdə istirahəti üçün vacib kurort ehtiyatı kimi qiymətləndirilir. Turist axınının cəlb edilməsində Azərbaycanın sahil zolağında meşə massivlərinin paralel şəkildə mövcudluğu mühüm əhəmiyyət daşıyır. Şimal sahil zolağında Yalama-Nabran meşə massivinin, cənub sahilində isə Astara meşələrinin mövcudluğu bölgənin turistlər tərəfindən mənimsənilməsinə şərait yaradır. Azərbaycanda dağlıq meşə massivində yaradılmış istirahət mərkəzləri və kurortlar bu zonalarda aqro turizmin inkişafı üçün persperktivli ərazilər hesab olunur. Bunlarla yanaşı kurort müalicə ehtiyatlarına sahib olan meşəli ərazilərdə turizm obyektləri – istirahət evləri, mehmanxanalar, hostellər və s. yaratmaq imkanları var. Bu ərazilərə Altıağac, Lerik, Masallı, Quba, Qusar və digərlərini aid etmək olar. Meşə ehtiyatlarının mövcudluğu Azərbaycanın Xəzər sahili ərazilərində son illərdə turistlər tərəfindən üstünlük verilən alternativ turizm növlərinin, məsələn, meşə turizmi, aqro turizmi, ekoturizmi, macəra turizmini inkişaf etdirmək üçün vacib baza rolunu oynayır.

### 3.2.3. Meşələrin ekoloji vəziyyəti

Azərbaycanda turizm sektorunda vacib rol oynayan müşələr uzun illər gələn turistlərin ən çox üz tutduğu yer olmuşdur. Bu qədər aktiv istifadə edilməsi tədricən meşə sahələrinin sıradan çıxmasına, ekoloji sistemin pozulmasına, flora və fauna sisteminin korlanmasına səbəb olmuşdur. Bunun başlıca səbəbi isə gələn qonaqlara

nəzarət edilməməsi, müəyyən tədbirlərin paralel olaraq həyata keçirilməməsi olmuşdur. Ölkə ərazisində meşə sahəsinin nisbəti üzrə kasıb olması ilə yanaşı, həmçinin ekoloji vəziyyətin gərginləşməsi vəziyyəti daha da pisləşdirmişdir.

Ölkəmizdə meşələrin qorunması ilə bağlı qanunvericilik aktı olaraq Azərbaycan Respublikası Meşə Məcəlləsi rəhbər tutulur. Meşə Məcəlləsinə görə fiziki şəxslər meşələrdə ağac və kolların sındırılmasına, kəsilməsinə, zədələnməsinə, zibilləmə, quş və qarışqa yuvasının dağıdılmasına yol verməməyə, meşəlik ərazilərdə yanğın təhlükəsizliyinə dair qaydalara əməl etməyə borcludur. Nəzərə alsaq ki, meşə ərazilərinin daim nəzarətdə saxlanması mümkün deyil, bu zaman əsas iş vətəndaşların üzərinə düşür.

Meşəlik ərazilərdə fiziki şəxslərin ov etməsi də bu məcəllə ilə tənzimlənir. Qeyd edək ki, ilin müəyyən dövlərində fərqli heyvan növlərinin ovlanması qadağan edilir. Bununla bağlı cəzalar tətbiq edilir.

Mütəmadi istifadə edilməsi nəticəsində tarazlıq pozulmuşdur. Bununla bağlı dünya təcrübəsində ağac əkilməsi, iməciliklər keçirilməsi və bu yöndə təbliğatlar aparılması çox aktiv həyata keçirilir. Bunlarla yanaşı, ekolgiyaya vurulan zərərə görə həm fiziki, həm hüquqi şəxslər üçün cərimələr tətbiq edilməsi ölkələrdə meşə sahələrinin qorunmasında vacib rol oynayır.

Ölkəmizdə də son illərdə geniş kütlənin maraq dairəsində olan eko turizm vasitəsi ilə turist qrupları yaradıla və meşələrin, təbii rekreasiya mühitinin mühafizəsi, məişət tullantılarının təmizlənməsi həyata keçirilə bilər. Həm ekoloji təmizlik təbliğatı aparan kütlənin, həm dövlətin maraqları bu istiqamətdə birləşir. Eyni zamanda bu təmizləmə işləri ilə bağlı müəyyən miqdarda xərclərin azalmasına da təsir edir.

Yüksək məbləğlərdə cərimələrin tətbiq edilməsi həm büdcəyə əsaslı şəkildə maliyyə vəsaitinin axmasına, həm də insanların zibilləmə, təbiətə ziyan vurma əməllərinin azalmasında müsbət nəticəyə gətirib çıxarar.

Bununla yanaşı meşələrin qorunması məqsədi ilə Milli parklar, qoruqlar, yasaqlıqlar yaradılır.

Ölkəmizdə sahilyanı ərazilərdə nisbətən azlıq təşkil edən meşələr əsasən dağətəyi maili düzənliklərdə möcvuddur.

Meşə ərazilərinin, flora və faunanın qorunması məqsədi ilə ölkəmizdə, xüsusilə Xəzər sahili ərazilərimizdə qoruqlar, milli parklar və yasaqlıqlar təşkil olunmuşdur.

**Şəkil 5. Azərbaycan ərazisində qorunan sahələr (qoruqlar, milli parklar, yasaqlıqlar)**




**Mənbə:** UNEP-WCMC (2019) (www.protectedplanet.net)

Yuxarıda qeyd etdiyimiz WDPA statistikasından göründüyü kimi ölkənin quru ərazisinin 10.16%-i, su sahəsinin isə 0.44%-i mühafizə olunan əraziyə daxildir.

Azərbaycanın Xəzər sahili ərazilərində Samur-Yalama, Altıağac, Şahdağ, Abşeron, Şirvan və Hirkan Milli Parkları, Qızılağac, Türyançay, Pirqulu, Şirvan, İsmayıllı qoruqları, Abşeron, Qusar, Zuvand, Bəndovan, Qızılağac, İsmayıllı, Şəki, Kiçik kimi yasaqlıqlar mövcuddur.

### 3.3. Bulaqlar

Bulaqlar yalnız yerli vətəndaşların deyil həmçinin əcnəbi qonaqların da maraq dairəsindədir. Azərbaycanın müxtəlif bölgələrində belə su mənbələri mövcuddur ki, tərkibinə və digər xüsusiyyətlərinə görə müalicəvi əhəmiyyət daşıya bilir. Əsasən sağlıq turizmi üçün istifadə olunan yeraltı su mənbələrinin inkişafı üçün ölkədə kifayət qədər potensial mövcuddur. Mövzumuz Xəzər sahili ərazilər olduğu üçün bu ərazilərdəki termal sulara daha çox yer ayıracağıq.

Azərbaycanın Xəzər sahili bölgələrində turizmin xüsusilə də sağlıq turizminin inkişafında bulaqlar təbii rekreasiya ehtiyatı kimi böyük rol oynayır. Son illərdə getdikcə məşhurlaşan sağlıq turizmi bu sahə üzrə ixtisaslaşmış ölkələrə böyük turizm gəlirləri gətirməkdədir.

Xüsusilə sahilyanı ərazilərdə çoxluq təşkil edir. Sağlıq turizminin iştirakçıları sağlamlıq, müayinə, qulluq, müalicə xidmətlərindən faydalanmaq üçün başqa bir ölkəyə, regiona səyahət edirlər.

Bu şəxslər öz yaşadıqları regionda istədikləri xidmətin olmaması və yaxud bu xidmətdən faydalanmaq üçün müəyyən bir müddət gözləmək məcburiyyətləri, həmçinin bir çox hallarda xidmətlərin baha olması səbəblərindən dolayı başqa ərazilərə üz tuturlar.

Azərbaycan mineral bulaqları ilə olduqca böyük potensiala sahib olmasına baxmayaraq, statistikaya nəzər yetirsək  görərik ki, bu sahədə bir o qədər də inkişaf etməmişik. Azərbaycan nə yerli əhali, nə də ən azından qonşu ölkələrimiz üçün mineral bulaqları ilə tanınan sağlıq turizmi ölkəsi sayılmır.

Yerli əhali daha çox sağlıq turizmi məqsədi ilə Türkiyə, İran, Gürcüstan, İsrail kimi ölkələrə üz tutur. Bu da açıq-aydın valyuta axını deməkdir. Turizmdə istifadə üçün sahilyanı ərazilərdə yerləşən mineral bulaqların daha da təşviq edilməsi və turistlərin üz tutmaması ilə bağlı problemləri həll etmək üçün öncə bu mineral bulaqları müəyyənləşdirək.

**Cədvəl 5. Azərbaycanın Xəzər sahilindəki əsas sağlamlıq turizm obyetklərinin mövcud vəziyyəti**

| Müalicə müəssisələrinin adı | İl ərzində rekreantlara xidmət etmə imkanı | Məskunlaşmış qaçqınların sayı | Xəstələr üçün ayrılan yerlərin sayı |
|---|---|---|---|
| Araz | 550 | - | - |
| Abşeron | 731 | 328 | 318 |
| Bilgəh | 367 | - | 416 |
| Qaranquş | 359 | 320 | 100 |
| Günəşli | 666 | 321 | 332 |
| Xəzər | 361 | 241 | 52 |
| Pirşağı | 911 | 911 | - |
| Şıxov | 201 | 101 | 100 |
| Lənkəran | 250 | 150 | 100 |
| **Cəmi** | **4394** | **2370** | **1567** |

**Mənbə:** Çingiz İsmayılov, "Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası". s.53.

Yerli potensialımızı düzgün dəyərləndirmək, onun spesifik xüsusiyyətlərini öyrənmək, daha sonra isə ona uyğun olaraq fərqli turistik fəaliyyətlər üzrə ixtisaslaşmaq olar. Əsasən şimaldan cənuba Quba-Xaçmaz, Abşeron, Aran, Lənkəran-Astara iqtisadi rayonları ərazini əhatə edən bu region mineral sularla olduqca zəngindir. Hər bir iqtisadi rayon üzrə rekreasiya ehtiyatlarımızı və sağlıq turizmi üçün əhəmiyyətini açıqlayaq.

### 3.3.1. Quba-Xaçmaz

Quba-Xaçmaz iqtisadi rayonu mühüm kurort-sanatoriya regionlarından biri kimi zəngin təbii-rekreasiya ehtiyatlarına malikdir. Mineral sulardan Qubada Xaltan, Xaşı, Cimi, Siyəzəndə Qalaaltı var.

Siyəzən rayonunda Qalaaltı mineral suyu əsasında kurort fəaliyyət göstərir. Orta Dağlığın istirahət və balneoloji imkanları turizmin inkişafına geniş imkan yaradır. Nabran-Yalama kurort zonası respublika əhəmiyyətli turizm bazasıdır.

Burada əsas diqqət çəkən məqamlardan biri Qalaaltı mineral su ehtiyatımızdır ki, onun barəsində ilk dəfə qeydlər 1578-ci ildə aparılmışdır. Bu su adından da göründüyü kimi neft mənbəli olduğundan zəngin üzvi maddələr mövcud olan müalicəvi sudur. Truskavets kurortu ilə Naftusiya adını bir çox şəs əlaqələndirir.

Turskavets su ehtiyatları uzun müddət davamlı istifadə edildiyinə görə tükənmiş və təbii tərkibini itirmişdir. Azərbaycanda Qalaaltı suyu ilə mineral müalicəvi

xüsusiyyətləri ilə heç də Truskavetsdən geri qalmır. Lakin, təəssüf ki, bu dünyada az bilinir.

Şabran şəhərinin 20 km yaxınlığında yerləşən Qalaaltı kəndində bu müalicəvi suyun 1969-cu ildə yeni mənbəyi üzə çıxarılmışdır. Bu mənbədə naftusiya dəfələrlə zəngin üzvi maddələrə malikdir və onun müalicəvi xüsusiyyətlərinin çoxluğunu bildirir.

Xüsusilə qeyd etməliyik ki, Qalaaltı suyunu birbaşa mənbədən içmək olar. Çünki tərkibində uçucu üzvi birləşmələr olduğundan su daşınma və saxlanılma üçün münasib deyil. Dadı və kəskin qoxusu ilə fərqlənən bu su yerli əhali tərəfindən naftsu olaraq adlandırılır. Qalaaltı sanatoriyasında müalicə məhz bu sularla həyata keçirilir.

80-ci illərin sonu 90-cı illərin əvvələrində siyasi, sosial və iqtisadi vəziyyətin gərginləşməsi turizm sektoruna, eləcə də  kurort komplekslərinin təşkili, onların idarə edilməsi insan resursları təminatı sahələrinə də mənfi təsir etmişdir.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində sanatoriyaya maddi ziyan vurulmuşdur. Belə ki, bu ərazilərdə nadir görülən təbii xüsusiyyətli ərazilər – rekreasiya kurort əraziləri dağıdılmışdır, daimi məskənlərindən didərgin düşmüş əhalimiz kurort sanatoriya müəsssisələri tərkibindəki pansionat, istirahət evlərində müvəqqəti məskunlaşmışdır.

### 3.3.2. Abşeron

Böyük müalicəvi əhəmiyyətə malik olan şəfalı bulaqlar bu ərazilərdə üstünlük təşkil edir. Suraxanı, Şıx və Sabunçu ərazilərində müalicəvi bulaqlar mövcuddur. Yod-brom tərkibli suların əhəmiyyətli müalicəvi təsirə malikdir. Bu da Abşeronu mineral sular üzrə məhşur bölgəyə çevirmişdir.

### 3.3.3. Aran

Cənub-şərqi Şirvan düzündə eyniadlı dağda yerləşən Babazənən mineral bulağı Aran bölgəsində xüsusi ilə seçilir. Bu mineral bulaq, bir çox tədqiqatçının fikirlərinə

görə, əsasən qadın xəstələriklərinin müalicəsində istifadə edildiyinə görə "Babazənən" – qadın piri kimi tanınır. Bu mineral bulağın suyu istidir, kükürdlüdür, dəri xəstəliklərinin müalicəsində effektiv olan rodonlu su axır.

### 3.3.4. Lənkəran-Astara

Bu bölgə termal olan soyuq su tərkibli mineral bulaqlarla zəngindir. Bölgədə mövcud olan 150-dən artıq mineral olan su mənbəsi mövcuddur ki, bu sular metan və azot tərkibli hesab olunur. Mineral bulaqlara Lənkəranda İbadi su, Haftoni adlı kənddə, Masallının Qəriblər adlı kəndində, Astarada İstisu adlanan kəndində və s. yerlərdə rast gəlinir.

Gördüyümüz kimi sahilyanı ərazilərimizdə çox sayda mineral ehtiyatlarımız mövcuddur. Lakin bu ərazilərin turistlər tərəfindən mənimsənilməsində ciddi problemlər müşahidə edilir. Bu problemləri infrastruktur, nəqliyyat, xidmət keyfiyyəti, ixtisaslı kadrların olmaması və s. olaraq qruplaşdırmaq olar.

# IV Fəsil XƏZƏR SAHİLİ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAFINA DAİR TƏDBİRLƏR

## 4.1. Azərbaycanın Xəzər sahilində turizmin inkişafına dair GZİT analizi

**Cədvəl 6. 2013-2017-ci illərdə Xəzər sahili əraziləri əhatə edən iqtisadi rayonlarda mehmanxana və mehmanxana tipli müəssisədə yerləşdirilmiş əcnəbi turistlərin sayı**

| **Güclü tərəflər** | **Zəif tərəflər** |
|---|---|
| ✓ Sahilyanı ərazilərdə dəniz turizminin, xüsusilə kruvaziyer turlarının inkişafı üçün girintili-çıxıntılı relyefə malik olması<br>✓ Əlverişli mövqedə - şərq ilə qərbi, şimal ilə cənubu birləşdirən körpü mövqeyində yerləşməsi<br>✓ Turizmin inkişafı üçün təməl faktorlar sayılan rekreasiya ehtiyatlarının Xəzər sahili ərazilərdə zəngin olması<br>✓ Təbii ehtiyatlarla yanaşı zəngin tarixi və mədəni abidələrə malik olması<br>✓ • Tarixi gedişat zamanı ölkəmizdə müxtəlif dinlərin yayılması | ✓ Yüksək səviyyədə xidmət göstərə biləcək ixtisaslı kadrların azlığı<br>✓ Turistlərin ölkəyə gəlişi ilə bağlı nəqliyyat problemləri<br>✓ Turizm potensiallı və rekreasiya ehtiyatları ilə zəngin ərazilərdə yerləşmə, qidalanma, əyləncə üçün turizm obyetklərinin az olması<br>✓ Tanıtımın həm lokal, həm regional səviyyədə zəif olması<br>✓ Xüsusilə sahilyanı mövqedən əsaslı istifadəyə imkan verən kruiz turizminin mövcud olmaması<br>✓ Ehtiyatların davamlı, lakin düzgün istifadə edilməməsi nəticəsində ekoloji problemlərin mövcudluğu<br>✓ Böyük potensiala sahib olmasına baxmayaraq, alternativ turizmin inkişaf etməmiş olması |
| **İmkanlar** | **Təhlükələr** |
| ✓ Turizm sahəsində həm yerli ixtisaslı kadrlar yetişdirilməsi, həm də ilkin dövrdə xaricdən ixtisaslı kadrların cəl edilməsi<br>✓ “Low cost” aviareyslərin açılması və turistlərin ölkəyə gəlişi zamanı viza məsələlərinin sadələşdirilməsi<br>✓ Rekreasiya potensiallı ərazilərdə turistik müəssisələrin yaradılması, sahibkarların bu sektorun gəlirliliyi barədə məlumatlandırılması, görüşlər keçirilməsi<br>✓ Xəzər sahili ərazilərimizdə turizm ehtiyatları barədə hərtərəfli araşdırma aparılması, foto və video kontentlər yaradılması, bunların həm ənənəvi marketinq, həm də rəqəmsal marketinq kanalları ilə tanıtım və təbliğatının aparılması | ✓ Turizmə yaranan maraq fonunda nizamsız şəkildə rekreasiya ehtiyatlarının istifadəsi nəticəsində ekoloji problemlərin böyük fəsadlar törətməsi |

**Mənbə:** Müəllifin tərəfindən hazırlanmışdır.

### 4.2. Aktiv turizm bölgələrinin potensialından istifadə

Bu başlıq altında bu günə kimi inkişaf etmiş turizm sahələrinin daha intensiv inkişafı, mövcud problemlərin həll olunması ilə bağlı təklifləri irəli sürəcəyik. Turizm problemlərini əsasən 4 qrup altında birləşdirə bilərik: Azərbaycanın turizm ölkəsi kimi tanıtımının zəif olması, turistlərin hərəkəti zamanı nəqliyyat və viza problemləri ilə qarşılaşması, turizm sektorunda ekoloji problemlərin mövcudluğu, turistik fəaliyyətlərin aktiv təşkil olunduğu ərazilərdə qiymətlərin yüksək, xidmətlərin isə keyfiyyət və kəmiyyətcə az olması aid edilir.

#### 4.2.1. Tanıtım və təbliğat

Azərbaycanın dəniz turizmi ölkəsi kimi tanıdılması, təbliğatı yönündə işlərin görülməsi vacib problemdir. Reklamçıların dili ilə desək, "Ağzınızla kuş da tutsanız, reklam yapmadıkça bunu kuş ve sizden başka kimse bilmez". (The advertising agency)

Tarixi gedişata nəzər saldıqda biz qeyd etdik ki, 90-cı illərə qədər Azərbaycan sovet məkanında müəyyən qədər dəniz turizmi ölkəsi kimi tanınırdı. Lakin müstəqillik qazandıqdan sonra ölkələrarası əlaqələrin qırılması Azərbaycanı öncəki kimi turistik bölgə olmaqdan çıxardı. Eləcə də, yeni müstəqillik qazanmış, müharibə şəraitində olan, həmçinin həm türk dövlətləri, həm də Avropa ölkələri ilə əlaqələrin olduqca zəif olduğu vəziyyət meydana gəldi. 2000-ci illərin əvvəlindən etibarən istər hüquqi, istər iqtisadi çərçivədə işlər görülsə də, ölkəmiz hələ də dəniz turizmi üçün öz məhşurluğunu regionda və dünyada tam olaraq qazana bilməyib. Burda təbii ki, tanıtımın, təbliğatın rolu böyükdür. Azərbaycanın dəniz turizmi ölkəsi kimi tanıdılmasında istər ənənəvi marketinq, istərsə də rəqəmsal marketinq üsullarından istifadə edilməli, ölkəyə daha çox turist cəlb edilməsinə çalışılmalıdır.

- Ölkəmizin istər istifadə olunan, istərsə də hələ də potensial olaraq qalmaqda olan rekreasiya-kurort ehtiyatları olduqca böyük olsa da, çox az tanınır. Mümkün qədər rəqəmsallaşan dünyada biz özümüzü "Made in Azerbaijan" brendi kimi – yenicə qəbul olunmuş "Take another look" sloqanı ilə tanıtmağa çalışmalıyıq.

İnternetdə, sosial şəbəkələrdə "Azərbaycanda turizm" və qonşu ölkələr "Türkiyə, Gürcüstanda turizm" başlıqlı sadə araşdırma etdikdə Azərbaycan üzrə nəticələr olduqca az olur. Həmçinin turistik obyektlərimiz, məkanlarımız müasir dünya ilə ayaqlaşmağa, trendlərə uyğunlaşmağa yetərincə həvəsli deyil. Lakin gerçək budur ki, məcraları aşan, zaman, məkan demədən virtual olaraq asanlıqla bizə məlumat çatdıran internet vasitəsi ilə biz az xərclə çox geniş kütləyə çata bilərik. Məhz bu səbəbdən dəniz turizmində marketinqə, bazar araşdırmasına, marketinq strategiyasına böyük yer verilməlidir.

- Biz dəniz turizminə, xüsusilə başlanğıc üçün çimərliyə imkan verən sahil zolağı ərazilərin tanıtımı üçün işlər görməliyik: video çarxların hazırlanması, influencerlərin buraya dəvət olunması, bəzi hallarda məhşur ifaçılar, böyük pərəstiş ordusu olan şəxslərlə festivalların təşkili, "Məhz hansı amillərə görə (ekoloji vəziyyət, təmizlik, xidmət, qiymət və s.üzrə) bizim çimərliklərimizə üz tutmalıdırlar?" suallarına cavab verəcək info matrialların hazırlanması ilə. Bunlarla yanaşı, xarici ölkələrin turizm agentliyi çalışanlarını həm Bakı, həm də digər çimərlik zolaqlarına info turlara cəlb edə bilərik.
- Bunlarla yanaşı informasiya xarakterli broşuraları, flayerləri biz qonşu ölkələrlə sərhəd keçid məntəqələrində, hava limanlarında yerləşdirməklə turist cəlb edə bilərik. Qeyd edək ki, bu informasiya materialları Türkiyə-Gürcüstan sərhədində Batumi çirməliklərini, Botanika bağını, muzeyləri və s. kimi məşhur yerləri özündə əks etdirən, həmçinin yanında xəritələrdə də yerləşdirilmiş stendlərdə nümayiş olunurdu. Bu təcrübəni həm quru yollarında, həm də hava limanlarında aktiv tətbiq edə bilərik.
- Tanıtım və təşviqat işləri sadəcə sahil zolaqlarını deyil, həm də sahildən 1-3 saatlıq məsafədə yerləşən turistik, əyləncəli, tarixi, sağlamlıq-kurort məkanları əhatə etməlidir. Bu cür tanıtımlar turistlərin baş çəkdiyi hotel, hostel, restoranlarda yerləşdirilməlidir. O məkanlara gediş yolları, xəritələri və s.məlumatlar elanlarda müxtəlif dillərdə əks olunmaldır.

- Tanıtımda, ölkəyə ilk dəfə gələn turistin ölkə barəsində ətraflı məlumat əldə etməsində dünyagörüşlü və ölkəmiz barədə dərindən bilən və məlumatları xarici dildə daha ətraflı şəkildə turistə təqdim edə bilən bələdçilərin əməklərindən faydalanmalıyıq. Turistlər etdikləri səfər müddətində həm dolğun məlumatlatlandırılmalı, həm də xoş təəssüratla ayrılmalıdır ki, yenidən buraya səfər üçün səbəb və kəşf edəcəyi məkanlar olsun.

### 4.2.2. Nəqliyyat və viza

Turistlərin qarşılaşdığı viza və nəqliyyat problemlərinin aradan qaldırılması.

- Qonaqlara ölkəni dəniz turizmi ölkəsi kimi tanıtdıqdan sonra başlıca məsələ onun ölkəyə gəlişini asanlaşdırmaq və bu yolda təşviqedici tədbirlər görməkdir. Məlumdur ki, ölkəmizə gəlmək istəyən bir çox ölkələr üçün viza rejimi tətbiq olunur. Amma təklif edirik ki, viza siyasəti mümkün qədər yüngülləşdirilsin. Lakin bəzi ölkələr var ki, onların pasportu bir çox dövlətlər üçün etibarlı sayılır və vətəndaşları vizasız rahatlıqla səyahət edə bilir. Təklif edirəm ki, Azərbaycan bu cür etibarlı ölkələrə (əsasən Almaniya kimi Avropa ölkələrinə) vizada daha çox güzəşt etsin, yaxud vizanı ləğv etsin.
- Biz yuxarıda 2014-cü və 2017-ci illər üzrə turist sayında BƏƏ, İran, Böyük Britaniya, Bəhreyn, Səudiyyə Ərəbistanı vətəndaşlarının gəlişində kəskin artımı müşahidə edirik. Təbii ki, bu viza rejiminin yumşaldılmasının nəticəsidir. Bizdə bu siyasət hələlik daha çox Körfəz ölkələrinin vətəndaşları üçün tətbiq olunur. Lakin düşünürəm ki, Avropa ölkələri üçün də tanıtımın və rahat viza rejiminin tətbiqi müsbət təsir edər.
- Qeyd olunan diaqramda biz müşhadiə edirik ki, turistlər səyahət zamanı 57% hava nəqliyyatı, 37% quru yolu, 4% su yolu, 2% dəmiryolu nəqliyyatından istifadə edilər. Nəqliyyat üzrə problemlərdən danışarkən isə biz əsasən turistlərin daha az xərclə və daha rahat, qısa zamanda ölkəmizə səyahət edə bilmələrini nəzərdə tuturuq. Burda bütün nəqliyyat növləri rol oynayır, lakin daha çox

problemli hissə daha çox üstünlük verilən hava nəqliyyatlarının Azərbaycanda nisbətən baha olması və bununla paralel aşağı qiymət təklif edən hava yolu şirkətlərinin mövcud olmamasıdır (beynəlxalq “low cost” şirkətlər). Son bir neçə ildə Buta Airways ilə aşağı məbləğdə uçuş reallaşsa da, bazar iqtisadiyyatı zamanında turistlərə daha çox seçimlər təqdim etməklə onların rahatlığını təmin edə bilərik. (WizzAir, Pegasus və s.). Eləcə də rəqabətli mühit xidmət keyfiyyətinin artımına, qiymətlərin isə nisbətən ucuzlaşmasına gətirib çıxara bilər ki, bu da birbaşa turistləri təşviq edən amil sayıla bilər.

**Şəkil 6. Turizm fəaliyyəti zamanı istifadə olunan nəqliyyat növlərinin payı**




**Mənbə**: Ümumdünya Turizm Təşkilatının 2017-ci il hesabatı

- Hava nəqliyyatı ilə yanaşı biz sürət qatarları barədə də danışa bilərik. Ölkəmizdə hazırda Bakı-Gəncə sürət qatarı fəaliyyətə başlamışdır. Lakin saat üzrə km nisbətinə baxdıqda onun heç də beynəlxalq səviyyəli sürət qatarlarına çatmadığı müşahidə edilir. Müqayisə üçün qeyd edək ki, artıq 10-15 il müddətdə bir çox ölkədə sürət qatarları fəaliyyət göstərir və 1 saatda ən azı 180-250 km sürətlə hərəkət edirlər. Lakin ölkəmizdə yeni fəaliyyətə başlayan sürət qatarı bu

parametrləri qarşılamır. Bu səbəbdən ölkədə sürət qatarlarının daha yüksək parametrlərlə tətbiqini təklif edirəm.

### 4.2.3. Ekoloji vəziyyət

Bioloji rəngarəngliyin qorunması və növbəti nəsillərə çatdırılması qlobal ekoloji problemlərdəndir və ildən-ilə daha da kəskin hal alır. "Biorəngarəngliyin katastrofik azalması əsasən turizm də daxil olmaqla, antropogen fəaliyyət, meşə təsərrüfatlarının təbiəttutumlu inkişafı, ətraf mühitin çirklənməsi nəticəsində yaşayış mühitinin korlanmasından irəli gəlir." (Cəfərova R. 2014, səh. 144)

Xüsusilə çimərlik turizmi üçün ekoloji vəziyyətin yaxşılaşdırılması.

- Burada çimərlik ərazisinin və Xəzər sularının tullantılardan təmizlənməsi yönündə islahatların aparılması nəzərdə tutulur. Baxmayaraq ki, müxtəlif illərdə prezident fərmanları, dövlət proqramları qəbul olunub və işə başlayıb, lakin yenə də çimərlik ərazilərinə çirkab və kanalizaiya sularının axıdılması davam etməkdədir. Görülən tədbirlərin, ayrılan məbləğlərin üzərinə nəzarətə, qiymətləndirmə işlərinə ehtiyac var. Zəruri olduğu halda yeni məsul qurum (yaxud komanda) yaradılıb bu işə yönləndirilməlidir.
- Qeyd edək ki, beynəlxalq təcrübədə çimərliklərə Mavi Bayraq verilməsi turistlər üçün önəm daşıyır, belə çimərliklərə daha çox üz tuturlar. Azərbaycanda da əsasən Bakı, Lənkəran, Nabran sahil zolağının Mavi Bayraq ala bilməsi üçün öncə ekoloji siyasət, təmizləmə işləri həyata keçirilməli, daha sonra hüquqi çərçivədə bayraq almaq üçün tədbirlər görülməlidir.

### 4.2.4. Turizmdə qiymət və keyfiyyət

Turizm üzrə göstərilən xidmətlərin qiymət və keyfiyyətinin münasibliyi və uyğunluğu mütləqdir. "Turist məhsullarına tanışlıq, sağlamlıq və digər məqsədləri reallaşdıran xidmətlər, turist ekskursiya xidmətləri, turist-suvenir xidmətləri aiddir." (Ə. Q. Əlirzayev, 2010, s. 24). Belə ki, gələn hər bir turist üçün bizim başlıca məqsədimiz

səyahətin mütəmadiliyini təmin etməkdir ki, bu da stabil turizm gəliri deməkdir. Lakin bir çox hallarda həm yerli əhali, həm əcnəbi qonaqlar qiymətin yüksək, xidmət keyfiyyətinin isə olduqca aşağı olduğunu qeyd edirlər. Nəticədə bir dəfə gələn turist narazı ayrıldığına görə yenidən gəlmir. Bu məsələyə Türkiyənin dəniz turizmi təcrübəsindən yanaşsaq, görərik ki, illərdir başda Rusiya əhalisi olmaqla, bir çox ölkələrin əhalisi mütəmadi olaraq Türkiyənin çimərliklərinə axışır. 20-25 il öncəsində Türkiyə xaricilərə turizm qapısını açdıqda ola bilər ki, aşağı keyfiyyətli xidmət təklif edirdi. Lakin illərlə yığılan təcrübə ölkənin turizm xidmətinin qiymət və keyfiyyətinə töhvəsini verdi.

- Ölkədə turistlərə xidmət göstərən müəssisələrin şəraiti, xidmət səviyyəsi qiymətləndirilməli, beynəlxalq standartlara uyğun sertifikatlaşdırılmalıdır. Həmçinin öncədən qiymətləndirilmiş müəssisələrin hazırki vəziyyəti yenidən yoxlanmalı və ona uyöun yenidən dəyərləndirmə həyata keçirilməlidir. Bu işlə məşğul olan qurumlar daha ciddi fəaliyyət göstərməlidir.
- Sahil zolağında böyük otellərlə yanaşı biz mütləq şəkildə 2 və 3 ulduza sahib otellərin, həmçinin də hostellərin tikilməsinə yer verməliyik. Çünki ölkəyə gələn turistlər müxtəlif gəlir təbəqəsindən ola bilir və aşağ-orta gəlirə sahib təbəqə “8 saat olan yuxu üçün” baha yox, nisbətən aşağı qiymətə yerləşmə məkanı axtaracaqdır. Buna görə də təklif edirəm ki, 2 yöndə iş görülməlidir: a) sahibkarların, həmçinin evi hostel, mehmanxana kimi istifadəyə təqdim etmək istəyənlərin buna cəlb edilməsi üçün bir sıra müvafiq qurum və təşkilatların işçiləri tərəfindən məlumatlandırma və təşəbbüskarlığa (entrepreneurship) təşviq işi həyata keçirilməlidir. b) bu cür fəaliyyət göstərən müəssisələrin içərisində qiymətləndirmə işləri həyata keçirməklə, daha yaxşı qiymətə daha yaxşı xidmət göstərən müəssisələrə müəyyən stimullaşdırıcı dəstək verilə bilər (qısa müddətli dövrdə vergilərdə güzəştlər, yaxud mükafatlar və s.)
- Həmçinin qeyd etmək yerinə düşər ki, öncələr dünya ölkələrində turistlər səyahət zamanı booking.com kimi otel sifarişi saytlarına üstünlük verirdilərsə, son illərdə

isə couchsurfing.com, airbnb.com kimi platformalara da yönəlirlər. Turistlərin cəlb olunması, onların ölkəmizə gəlişinin təşviqi, milli, mədəni, tarixi, kurort, istirahət məkanlarımızla tanışlığı üçün həm əhali, həm turizm yerləşmə obyetkləri müasir internet platformalarında aktiv fəaliyyət göstərməlidirlər.

- Əlbəttə, xidmət keyfiyyətinin artırılmasından söhbət gedirsə, biz həm də xidmət göstərənlərin peşəkarlığına da xüsusi diqqət ayırmalıyıq. Ölkədə nə dərəcədə ixtisaslı kadr turizm müəssisələrində fəaliyyət göstərir? Bilikləri müasir dünya ilə ayaqlaşırmı? Turistlə ünsiyyət bacarığı, dil biliyi, "onları razı salmaq" bacarıqları, turistlərə təklif etdiyi xidmət barədə məlumatlılığı hansı səviyyədədir? Bu kimi problemlər qalmaqda davam edir. Bu problemlərin həlli üçün turistlərə xidmət göstərən müəssisələrdə kadrları ixtisasartırmaq və dil kurslarına yönləndirmək vacibdir. Həmçinin ixtisaslı kadrlara üstünlük verilməsi ilə bağlı sahibkarlarla məlumatlandırma, konsaltinq xarakterli görüşlər təşkil olunmalıdır. Bununla yanaşı turizm qurumları münasib qiymətlərə beynəlxalq turizm proqramlarını, ixtisas artırma və dil kurslarını da kadrlara təklif edə bilər. 2-4 həftəlik, yaxud 3 aylıq kurslar vasitəsi ilə əməkdaşların xidmət keyfiyyətini artırmaq olar.

Bazarda daha çox yerləşmə, ictimai iaşə obyektləri və daha çox ixtisaslı kadrların olması tədricən tələb-təklif əsasında münasib qiymətə keyfiyyətli xidmətə nail olmamıza imkan verəcək. Burada əsas yük turizm üzrə dövlət qurumlarının, sahibkarların üzərinə düşür.

### 4.3. Rekreasiya potensiallı ərazilərin canlandırılması

Xəzər sahili ərazilərdə əlverişli coğrafi-iqtisadi mühit bu ərazilərin yaxşı mənimsənilməsinə, bu da özlüyündə turizm sektorunun inkişafına münbit şərait yaratmışdır. Tədqiqat zamanı müşahidələrdən belə bir nəticə əldə edildi ki, bəzi regionlarımız öz turizm rekreasiya ehtiyatlarına görə hələ də tam olaraq mənimsənilməmişdir, Mövcud potensialdan müasir dövrün turizm tələbinə uyğun bu

bölgələrdə turizm inkişaf etdirilməlidir. Bu başlıqda rekreasiya potensialı olan ərazilərdə turizmin, həmçinin müasir dövrün trendinə çevrilmiş alternativ turizm növlərinin tətbiqinə dair təkliflər irəli sürülmüşdür.

### 4.3.1. Ənənəvi turizm növlərinin inkişaf etdirilməsi

Dəniz turizmi potensialı olan, lakin istifadə edilməyən ərazilərin və turistik fəaliyyətlərin aktiv hala gətirilməsi.

Bu alternativ isə sahil zolağımızda yerləşən, az istifadə olunan, yaxud heç istifadə edilməyən ərazilərin tədqiqi, turizmin inkişafını, müasir dünyada sevilən və üstünlük verilən əyləncəli, həyəcanlı, bəzən isə təhlükəli turistik fəaliyyətlərin araşdırılıb aktivləşdirilməsini nəzərdə tutur.Dəniz turizmi baxımından inkişaf etmiş bölgələrə nəzər yetirsək, daha çox Abşeron ərazisinin inkişaf etdiyini görərik. Ölkəmizə gələn turist sayı üzrə lider məhz bu regiondur və daha çox infrastruktur da burada artıq yaradılmışdır. Dəniz turizmi üçün əlverişli olan sahil zolağında yerləşən iqtisadi rayonlar turist sayına görə Abşeron, Quba-Xaçmaz, Aran və Lənkəran iqtisadi rayonları olmaqla sıralanır. Statistik göstəricilərdən də aydın görünür ki, böyük potensiallı və uzun sahil zolağı əhatə edən Aran və Lənkəran bölgələrini ziyarət edən əcnəbi turist sayı olduqca azdır. Buradakı dəniz turizminə yararlı ərazilərin tədqiqi, təklif oluna biləcək dəniz turizmi növlərinin araşdırılması, infrastruktur yaradılması, həm sahibkarlar, həm də əcnəbilər üçün çimərlik və digər turistik fəaliyyətlərin cəlbediciliyinin artırılması məqsədi ilə tanıtım, reklam işləri görülməlidir.

- Lənkəranda qadınlar üçün ayrıca çimərlik sahəsinin ayrılması ölkəyə gələn qadın turist kütləsi vasitəsi ilə daha yaxşı tanıtımla daha çox qazanc deməkdir.
- Yaxud Aranın sahil zolağında girintili-çıxıntılı coğrafi mövqeyə malik olması və limanların mövcudluğu onu dəniz – gəmi və kruvazyer turları üçün daha cəlbedici hala gətirir. Burada düzgün infrastruktur qurulsa, yalnız ticarət məqsədli deyil, turizm yönümlü gəmilər üçün sahələr ayrılsa, məqsədəuyğun olar.

**Cədvəl 7. 2013-2017-ci illərdə Xəzər sahili əraziləri əhatə edən iqtisadi rayonlarda mehmanxana və mehmanxana tipli müəssisədə yerləşdirilmiş əcnəbi turistlərin sayı**

| **İqtisadi rayonlar** | **İqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisədə yerləşdirilmiş əcnəbi ölkə vətəndaşlarının sayı (nəfər)** | | | | |
|---|---|---|---|---|---|
| | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
| Bakı | 341838 | 337,776 | 422,565 | 582,593 | 776,378 |
| Abşeron | 365 | 662 | 642 | 1,015 | 2,508 |
| Lənkəran | 1106 | 765 | 928 | 876 | 3,168 |
| Quba-Xaçmaz | 1044 | 1,392 | 3,162 | 18,378 | 54,078 |
| Aran | 1176 | 842 | 4,526 | 2,998 | 3,284 |
| Ölkə üzrə - cəmi | 395461 | 392,790 | 495,648 | 776,784 | 981,232 |

**Mənbə:** Azərbaycan Respublikası Statistika Komitəsi, 2018 (https://www.stat.gov.az/)

- Bu 2 iqtisadi rayon üzrə müxtəlif gəlir səviyyələrində olan turistlər üçün fərqli qiymətlərdə daha yaxşı xidmət təklif edən mehmanxana və mehmanxana tipli obyektlərin, ictimai-iaşə müəssisələrinin yaradılması, sahibkarların bu işə cəlb edilməsi üçün onlarla maarifləndirici görüşlərin keçirilməsi, daha yaxşı xidmət göstərən müəssisəyə şəffaf qiymətləndirmə nəticəsində istər bank faizləri, istər vergi dərəcələri üzrə güzəştlər, mükafatlandırma təklif edilməsi məqsədəuyğun olar.
- Bunlarla yanaşı, bu iqtisadi rayonların ərazisində yerləşən, sahilə yaxın turistik məkanlar (abidə, muzey, əyləncə, ticarət mərkəzləri və s.) barədə məlumatların, elanların yerləşdirilməsi ilə ərazini turist üçün təkcə çimərlik turizmi üçün yox, həm də fərqli əyləncə, istirahət üçün daha yaddaqalan etmək olar.

Bu bölgələrdən daha yaxşı istifadə edilməsi regionların inkişafına da gətirib çıxarır ki, bu da ölkə üçün prioritetlərdəndir. Bu səbəbdən ixtisaslı kadrların bu bölgəyə cəlb edilməsi, tədqiqat və qiymətləndirmə işlərinin peşəkarlar tərəfindən aparılması zəruridir.

### 4.3.2. Alternativ turizmin tətbiqi

Öncəliklə alternativ turizmin mahiyyətini aydınlaşdıraq. Turizmin yeni və xüsusi bir növü olan alternativ turizm – klassik və qeyri-ənənəvi turizmin vəhdətini təşkil edir. Məsələn, macəra və eko turizmin vəhdətini təsəvvür edin. XXI əsrdə getdikcə

populyarlaşan alternativ turizmin ənənəvi turizmdən fərqi budur ki, bu turizmdə iştirak edən turistlər səyahət zamanı işləməyə, öyrənməyə və öyrəndiklərini tətbiq etməyə də həvəslidirlər, təbiətlə harmoniya, estetika, eko sistem ilə mədəni mübadilə şəraitində olurlar. Rekreasiya ehiyatlarının – təbii və mədəni mühitin, o cümlədən, kənd yerlərinin qorunması, müdafiəsi də ön planda olur.

Alternativ turizm - ənənəvi turizm növlərinə qarşı doyma səviyyəsinə çatmış insanların yeni yerlər, yeni həyəcanlar axtarışına çıxması nəticəsində yaranan turizm fəaliyyətləri nəticəsində meydana gəlmişdir.

Günümüzdə alternativ turizmin geniş yayılmış bu növləri var:

1. Dini turizm – dünyada hər hansı bir dinin formalaşmasında və ya inkişafında mühüm rol oynayan ərazilərə səfərləri nəzərdə tutur. Bu cür səfərlər məqsədə görə 2 qrupa bölünür: zəvvarlıq və maarifləndirmə. Azərbaycanın Xəzər sahili əraziləri həm urabnizasiya səviyyəsinin yüksəkliyi, həm də tarixi gedişat boyunca müxtəlif dini sivilizasiyaların qovşağında olması ilə fərqlənmişdir. İslam, xristian, yəhudi dinləri, buddizm bu ərazidə geniş yayılmış, maddi-mədəni nümunələr çoxluq təşkil edir. Azərbaycanda hər hansısa bir dini ayrıseçkilik problemləri olmadığından, yetərincə tolerant ölkə olduğundan bura da hər bir dinin nümayəndəsinə rast gəlmək mümkündür. Buna görə də ölkə ərazisində fərqli dinlərə sahib bir sıra tikililər mövcuddur. Tarix boyu fərqli dinlərin ölkədə hakimiyyət göstərməsi də bu prosesə öz təsirini yetərincə göstərmişdir. Bu səbəbdən dini turizmin inkişafı üçün kifayət qədər geniş potensialımız var.
2. İdman turizmi – idman fəaliyyətlərində aktiv və passiv iştirakın bütün növlərini əhatə edir. İştirak burada həm öncədən planlanmış, həm də təsadüfi şəkildə baş tutur. İdman turizmində əsas məqsəd günlük həyatdan, evdən, işdən uzaqlaşmaqdır və istirahəti idmanla birləşdirənlər üçün ideal seçimdir. Son illərdə xüsusilə Bakıda keçirilən beynəlxalq yarışmalar, idman oyunları bu sektorun inkişafı üçün münbit şərait olduğunu üzə çıxarır. Bu kimi layihələr

ölkəyə turist axınını formalaşdırır. Tək cari dövrdə deyil, həmçinin gələcək dövr üçün də bu kimi tədbirlərin böyük rolu vardır. Belə ki, hər hansısa bir tədbirlə ölkə öz tanıtımını edir. Uzunmüddətli dövrdə isə turistin seçimlərinə bu amil əhəmiyyətli dərəcədə təsir göstərir.

3. Aqroturizm – Bu turizm növü kənd təsəürrufatında iştirak və istirahətin vəhdətini təşkil edir. Əsasən İnkişaf etməkdə olan ölkələrdə yayılmış bu turizm növü heç bir maddi resurs sərf etmədən turistləri cəlb etməyə imkan verir. Gələn turistlər fermerin evində, yaxud ayrıca təşkil olunmuş tikilidə qalırlar, gün boyunca fermerə kənd təsərrüfatı işlərində kömək edirlər, yerli adət-ənənələrlə tanış olurlar. Praktik nümunələrə nəzər salsaq, qeyd edə bilərik ki, bir çox halda turistlər yerli əhaliyə hər hansı bir fəaliyyəti – məsələn xarici dil öyrətməyi öz üzərlərinə götürürlər. Yerli əhali isə onlara ənənəvi peşələri, məsələn, xalçaçılıq, rəngkarlıq, milli yeməkləri bişirmək və s. öyrədir. Abşreon iqtisadi rayonu istisna olmaqla, digər sahilyanı bölgələrimizdə kənd təsərrüfatı və onunla məşğul olan iqtisadi fəal əhalinin kəmiyyətcə üstünlük təşkil edir. Kənd təsərrüfatı üçün çox böyük məbləğlər ayırmadan da, düzgün marketinq tədbirləri vasitəsi ilə aqroturizmin inkişafına nail ola bilərik.
4. Ekoturizm – mağaralar, dağlar, qayalar, çöllər, zəngin flora və faunaya sahib ərazilərə səyahəti təşkil edir və ekoloji resursdan istifadə edərək ortaya çıxan bir turizm formasıdır. Burada ən başlıca məqsəd həm ətraf mühitin qorunmasına həssaslıqla yanaşmaq, həm də yerli mədəniyyət və təbiət haqqında mühüm informasiyaları öyrənməkdir. Ölkəmizdə sahilyanı ərazilərin təbiəti, ətraf mühiti, toxunulmamış əraziləri, özünəməxsus fauna və floramız ekoturizmin inkişafına imkan verir. Bu sahənin inkişaf etdirilməsi və turizm məqsədli istifadəsi mümkündür.
5. Təhsil turizmi – ibtidai, orta, ali təhsil, kurslar, seminarlar olmaqla təhsilin bir çox səviyyəsini özündə cəmləyən, yeniliklər öyrənmək, peşə-ixtisas səviyyəsini artırmaq istəyən insanların aktiv üz tutduğu turizm növüdür. Təhsil səviyyəsini

inkişaf etdirməklə, xüsusilə Bakıda cəmlənmiş ali təhsil müəssisələrinə əcnəbi turistləri cəlb etməklə bu sahənin inkişafına nail ola bilərik. Burda kiçik nüans odur ki, yalnız tələbələr və təhsil alanlar deyil, onlarla birgə, qohum əlaqələri nəticəsində əlavə də turistlər (valideynlər, 1-ci və 2-ci dərəcələri qohumlar) də səyahətə meyl edirlər. Bunun nəticəsində də ölkəyə gələn turistlərin sayında müəyyən qədər artımlar müşahidə olunur.

6. Sağlamlıq turizmi – müxtəlif xəstəliklərdən müalicə üçün nəzərdə tutulan turizm zonalarına ziyarət etməklə bədənin, o cümlədən, ruhun istirahət etməsi və yenilənməsi məqsədi daşıyır. Həm fiziki, həm zehni olaraq, insana bu turizm növü ilə məşğul olmaq çox böyük təsir edir. Böyük mineral su ehtiyatlarımız mövcuddur. Sahil zolağında üstünlük təşkil edən şəfalı bulaqlarımız kifayət qədər potensialı mövcuddur. Yerli əhali bu turizm növündən istifadə etsə də, bəzən məlumatsızlıqdan vətəndaşlarımız ölkə xaricinə bu kimi sahələrin alternativlərinə üz tuturlar. Amma burada tək informasiya mübadiləsini önə çəkmək yetmir. Bununla yanaşı xidmət sahəsinin keyfiyyəti  və qiyməti də önəmlidir. Çünki istər yerli istərsə də xarici turistlər əksər vaxtlarda bu sahədə göstərilən xidmətdən və bu xidmətin qarşılığında alınan böyük qiymətlərdən dolayı mənfi təəssüratlarla ayrılırlar.
7. Macəra turizmi – Turizm sektorunda sürətlə böyüyən bir turizm növüdür. Macəra turizmi ümumi olaraq açıq havada və əyləncə mərkəzlərində həyata keçirilir. təbii ətraf mühitin xüsusiyyətlərinə əsaslanır və macəra elementləri ilə əhatələnmiş əyləncəni əks etdirir. Fərqlilik axtaran, təhlükə və yüksək riskə maraq göstərən insanları stresli mühitdən çıxarıb yeniliklər öyrənmək və görmək imkanı verir (dayvinq, alpinizm, paraplan və s.). Sahil sularında və quru landşaftında müxtəlif macəra turizm növlərini inkişaf etdirə bilərik.
8. Mədəni turizm – müxtəlif bölgələrin mədəniyyət və sivilizasiyalarını öyrənmək istəyənlər ərazilərə səyahət edir, təşkil olunmuş seminarlarda iştirak edir, bunlarla yanaşı yerli adətləri əks etdirən ənənəvi sənətkarlıq işləri ilə -

dulusçuluq, heykəltaraşlıq, musiqi alətləri və s. – məşğul olur. Zəngin mədəni tarixə malik olan Azərbaycanda mədəni turizmin inkişafı üçün əlverişli şərait mövcuddur.

9. Animasiya turizmi - ənənəvi turizm xidmətlərinə innovasiyanın, texnologiyanın cəlb edilməsi ilə formalaşmışdır. Nümunə kimi qeyd edək ki, öncələr turistlər hər hansı ölkəyə səfər etdikdə milli mətbəx təamlarını dadmaq üçün restoranlara üz tuturdularsa, hazırda restoranlarda qidaların animasiya ilə, şou ilə təqdimatına daha böyük maraq göstərirlər. Buraya həm aşpaz tərəfindən xüsusi təqdimat, həm 3D texnologiyasından istifadə ilə süfrədə müxtəlif fəaliyyətlərin təşkil olunması, həm də robot texnologiyasının tətbiqi ilə müştərilərə xidmət göstərilməsi kimi fəaliyyətlər, müxtəlif məzmunlu (hərbi, tibbi və s.) restoranlar daxildir. Ölkəmizdə bir o qədər tanınmasa da, az maliyyə ilə böyük diqqət cəlb etmək imkanı var.
10. Konqres turizmi - İnsanların daimi yaşadıqları və ya işlədikləri yerlər xaricində müəyyən elmi sahələrdə və ya peşə sahələrində müəyyən mövzuları müzakirə etmək məqsədi ilə, məlumat alğı-satqısı məqsədi ilə bir araya gəlmələrindən yaranan səyahət, qonaqlama, hadisə və əlaqələrin məcmusu olaraq başa düşülür. Konqres turizmini seçən turistlər sahil tətillərini seçən turistlərdən təxminən 3 dəfə artıq gəlir gətirir. Dünya miqyasında baxarsaq konqres və toplantılar ən çox səhiyyə-sağlamlıq sahəsində yayılmaqdadır. Ən böyük gəlirlər də yenə tibbi konqreslər, dərman firmalarının toplantıları və gəzintilərindən əldə olunmaqdadır. Bunun ardınca isə texnoloji görüşlər və təhsil sektoru gəlir. Ən az konqreslər isə mədəniyyət və sənət sahələrində baş tutur. Konqres mərkəzləri şəhərimizi tanıtmaqda ən böyük ünsürlərdən biridir. Memarlıq tərəfi mədəniyyətimizi, quruluşu isə texnoloji tərəfini göstərməkdədir. Konqres mərkəzləri fiziki olaraq şəhərin gözəlliklərini geridə qoymayacaq şəkildə, yerləşmə olaraq hər kəsə əlverişli, geniş avtomobil dayanacağına sahib və içərisindəki genişliyi gələcək olan qonaqlara yetməlidir. Texnoloji tərəfdən də

bütün avadanlıqlara sahib olmalıdır. Son illərdə bu turizm növü inkişaf etməkdədir və iştirakçıları əsasən yüksək təbəqə nümayəndələri olduğundan daha çox valyuta axınına imkan verir. Son illərdə ölkəmizdə müxtəlif beynəlxalq tədbirlər, konfranslar təşkil olunur. Bu sahənin daha da inkişaf etməsi üçün zəmin yaradır. Beynəlxalq arenada konqres turizmi ölkəsi kimi tanınmaq üçün iqtisadi əlaqələrin güclənməsi mütləqdir.

Ölkəmizdə olduqca böyük potensialı olan, lakin az istifadə edilən alternativ turizm fəaliyyətlərinin təşviqini qeyd etməliyik.

- Biz sahilyanı ərazilərimizdə turizmdən və nəqliyyat növlərindən danışırıqsa, kruiz turlarını da qeyd etməliyik. Kruiz turları böyük, "üzən şəhərciklər" adlanan kruvazyer gəmiləri ilə həyata keçirilir. Bu turlar bilavasitə kruvazyer gəmilərdə baş tutur. Turistlər limanlarda kiçik fasilələr vermək şərtilə ilə dənizlər, okeanlar aşaraq aylarla səyahət edir. Kruizlərdə gələn turistlər yalnız otelin otaqları ilə deyil, geniş idman sahələri, üzgüçülük hovuzu, restoran-kafe, əyləncə-ticarət mərkəzi, həmçinin helikopterlər üçün nəzərdə tutulmuş yerlərlə təmin olunurlar. Azərbaycan dəniz kanalları vasitəsi ilə dünya okeanına çıxışa malikdir. Bu fürsətdən faydalanaraq Xəzər ərazilərindən keçən, vahid dünya okeanına çıxışı olan kruiz tur xidmətləri verə bilərik. Həmçinin kruiz turları əsaəsən yüksək gəlirli təbəqəyə xidmət etdiyindən daha yüksək gəlirin ölkəyə daxil olması deməkdir. Olduqca yüksək investisiya tələb etsə də, bir o qədər də çox gəlir vəd etdiyindən bu sahə də gələcək illərdə prioritet təşkil etməlidir. Böyük limanlar tələb etdiyindən Aran və Abşeron iqtisadi rayonlarında tətbiqi daha uğurlu olar.
- Quru yollarında səyahətin bir növü də son 10 ildə çox üstünlük verilən karavanlarladır. Turist səyahəti yataq, ayaqyolu, mətbəx üçün nəzərdə tutulmuş ərazi və s.olan bunun kimi yığcam ev formalı nəqliyyat vasitəsində - özlərinin karavanında keçirir. Əksər hallarda karavanların qiyməti 10 0000 AZN ətrafında olur. Lakin turistlərə kirayə karavanlar verilməsi xidməti ilə də onları cəlb edə, avropasayağı səyahət vəd edə bilərik. Son dövrlərdə turistlər agentliklərin təklif

etdiyi hazır paketlər yerinə öz fərdi turlarını hazırlamağa, vaxt, məkan və s.üzrə sərbəstliyə can atdıqlarından karavan turizmi effektli olacaqdır. Lakin qiymətin yüksək olması, onları kirayələmə xidməti verəcək müəssisəyə, turizm şirkətinə böyük məbləğlər xərcləməyi tələb edir.

- Biz maksimum çalışmalıyıq ki, həm mövcud resurlarımız hesabına, həm də xaricdən idxal olunan avadanlıq və cəlb olunmuş xarici mütəxəssislər vasitəsi ilə turizmin bir sıra yeni növlərini meydana çıxara bilək. Buraya müxtəlif restoranlarda qidaların hazırlanmasını turistlərə canlı nümayiş etdirən 3D texnologiyalarından, macəra turizmi üçün nəzərdə tutulan hava şarlarının ölkəyə idxalına  kimi məsələlər aiddir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işində ilk olaraq rekreasiya ehtiyatlarının turizmdəki rolu analiz edildi. Daha sonra ölkəmizin rekreasiya ehtiyatları dərindən öyrənildi.

Tədqiqat boyu Azərbaycanın Xəzər sahili ərazilərinin turizm rekreasiya ehtiyatları ilə zənginliyi üzə çıxarıldı. Hazırda turizm üzrə aktiv bölgələri və turistik fəaliyyətləri araşdırdıq.

Turizm üzrə aktiv sahələrin əsasən əlverişli coğrafi mövqeyə sahib olan ərazilər ilə üst-üstə düşdüyünün şahidi olduq. Bu ərazilərdə turizmin inkişafı müəyyən problemlərlə paralel şəkildə həyata keçirilir. Bu da öz növbəsində davamlı və dayanıqlı inkişafa mane törədir. Belə ki, ərazilərin kütləvi şəkildə istimarı bu gözəlliklərin təbiiliyi itirməsinə, erroziyaya uğramasına səbəb olur.

Qarşıya çıxan ekoloji problemlərin həlli məqsədi ilə mütləq şəkildə tədbirlər görülməlidir. Uzun illər formalaşmış ekoloji çirklənmələr ilə bağlı tədbirlər artıq intensiv xarakter daşımalıdır. Bu tədbirlərin uzunmüddətli dövrdə nəticəsini əldə edə bilərik. Təklif edirik ki, sahilləri neftlə çirklənmiş ölkələrin, həmçinin xüsusilə çimərlik turizminin inkişaf etdiyi ölkələrin təcrübəsindən yararlanmağı təklif edirik.

Digər bir təklifimiz Azərbaycanda turizmin inkişafı ilə bağlı yeni yaradılmış qurumlar Azərbaycan turizmini, rekreasiya potensialını regionda dünyada daha yaxşı tanınması, xüsusi ilə rəqəmsal dünyada fərqlənən ölkəyə çevrilməsi üçün sahibkarları və dövlət nəzdində fəaliyyət göstərən qurumları bu işə təşviq etsin. Bununla bağlı müvafiq müəssisələrə ənənəvi və rəqəmsal marketinq mövzularında məlumatlandırma xaraketrli təlimlər təşkil edilsin. Bu məsələdə əsas rol Dövlət Turizm Agentliyinin üzərinə düşür. Yeni yaranmış qurum innovativ qərarları və səlajiyyətləri ilə dirçəlişdə rol oynayacaqdır.

Ölkəyə gələn turistlərin sərhəddə, xüsusilə birbaşa hava limanında viza almasına şərait yaradılmasını, "güclü pasporta sahib ölkə" vətəndaşlarına viza siyasəti yumşaldılmasını təklif edirik. Xüsusi ilə Avropadan gələn turistlərin davamlı səyahətə

meylli olduqlarını nəzərə alaraq bu tədbirlərin reallaşması uzunmüddətli dövrdə daha çox və davamlı turizm gəlirləri deməkdir.

Nəqliyyat sferasında yenilənmələr mütləq həyata keçirilməlidir. Təklif edirik ki, dünya standartlarına uyğun sürətli qatarlar təşkil edilməlidir.

Beynəlxalq turizm bazarında turistlər tərəfindən üstünlük verilən “low cost” hava nəqliyyatı şirkətləri ölkəmizə dəvət edilməli və onlara müəyyən güzəştlər də təşkil edilməlidir. Turistlərin kütləvi cəlb edilməsi üçün bu təklifin reallaşdırılması mütləqdir.

Turizm sektorunda qonşu ölkələrdə və təqribən eyni coğrafi regionda yerləşən ölkələrinin turistik xidmətlərinin qiymətləri müqayisə edildikdə əldə olunan nəticələr qənaətbəxş deyildir. Belə ki, xidmətlərinin keyfiyyətinin artırılması, ixtisaslı kadrların bu işə cəlb edilməsi yönündə işlər aparılmalıdır. Dünya ölkələrində olan müxtəlif sertifikatlaşdırma və lisenziyalaşdırma prosedurları turizm sektorumuzda tətbiq edilməsini təklif edirik. Buraya Mavi Bayraq tətbiqindən tutmuş otellərin ulduzla sertifikatlaşdırılması, əməkdaşların təhsil və iş keyfiyyətlərinin artırılması məqsədi ilə əlavə kurslara cəlb edilməsini təklif edirik. Təbii ki, burda Dövlət Turizm Agentliyi, Təhsil Nazirliyi və universitetlərin vəzifə öhdəliyi çox olacaqdır.

Ölkəmizdə tətbiqi zəif olsa da, dünya ölkələrində artıq trendə çevrilmiş alternativ turizm növlərinə maraq getdikcə ölkəmizdə də artır. Bu həm yerli əhalinin, həm də əcnəbi turistlərin tələbatında özünü büruzə verir. Xəzər sahili ərazilərimizin münbit şəraiti imkan veriri ki, alternativ turizm növlərindən eko turizm, aqro turizm, sağlamlıq turizmi, dəniz turizmi – xüsusilə bol gəlir gətirən kruiz turizminin inkişafına imkan verir. Qeyd etdiyimiz kimi alternativ turizmin müxtəlif növləri son illərdə aktiv tətbiqedilməyə başlayıb. Lakin praktikada pərakəndəlik sezilir. Dünya praktikasına nəzər salmaq, görülən işlər,sahibkarların müxtəlif rekreasiya ehtiyatlarından istifadə edərək biznes fəaliyyətləri nəzarətdə olmalı, görülən işlər mütəmadi qiymətləndirilməlidir. Bu halda effektivliyi dəqiq ölçə bilərik, bununla yanaşı, üzə çıxa biləcək problemləri daha öncədən aşkarlaya bilərik. Mövcud potensialın daha da dərindən araşdırılıb və bu sahələrinin yerli sahibkarlar tərəfindən daha da diqqət

mərkəzində saxlanılması üçün Dövlət Turizm Agentliyi tərəfindən tədqiqatçı qrup yaradılmasını təklif edirik.

İlkin 5 illik müddətdə təbliğat, xaricdən ixtisaslı kadrların cəlb edilməsi, potensiallı ərazilərin üzə çıxarılması, nəqliyyat məsələlərinin güclləndirilməsi mümkündür. Lakin yerli kadrların yetişdirilməsi, ekoloji problemlərlə mübarizə, rəqabətli iqtisadi mühitin formalaşdırılması mümkündür.

Düzgün təqdidat, qiymətləndirmə, tətbiq və nəzarət işləri görülərsə, Azərbaycanın Xəzər sahili ərazilərində turizm sektorunun inkişafına nail ola bilərik.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Yerli mənbələr:


1. Abbasov C. R. (2005), Azərbaycan Respublikasının iqtisadi-sosial coğrafiyası, Bakı, “AzTU mətbəəsi”, 151 səh.
2. Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı.
3. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi,
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi: Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar, (2015 dekabr 29)
5. Bakı Dövlət Universitetinin dərs vəsaiti (2011), Dünyanın iqtisadi və sosial coğrafiyası, “Sabah”, 584 s.
6. Cəfərova R. (2014), Təbitədən istifadənin iqtisadiyyatı, “Gəncə Poliqrafiya”, 286 s.
7. Daşdiyev R. (2010), Landşaftın ekologiyası, “Bakı – MBM”, 139 s.
8. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi , Milli Elmlər Akademiyası (2010), Ekoloji atlas, “Bakı Kartoqrafiya Fabriki”, 156 s.
9. Gərayzadə T. (2004), Regional coğrafiya, “Çaşıoğlu”, 384 s.
10. Həbibov T. (2011), Ümumi geologiya, “ADPU-nun nəşriyyatı”, 384 s.
11. Hüseynov İ., Əfəndiyeva N. (2007), Turizmin əsasları, “Mars-Print”, 170 s.
12. İmanov F.Ə., Məmmədov V.A., Abdullayev İ.M. (2014), Hidrologiya, “Bakı – MBM”, 564 s.
13. İsmayılov Ç. (2010), İqtisadi və sosial coğrafiyanın əsasları, “Teas Press”, 160 s.
14. İsmayılov Ç., İbrahimov A., Süleymanova N., Azərbaycan coğrafiyası, “Teas Press”, 200 s.

15. Maksakovski V.P. (2010), Dünyanın coğrafi mənzərəsi, 490 s.
16. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. (2002), Beynəlxalq turizmin coğrafiyası, "Mütərcim", 134 s.
17. Məmmədov R.H., Bəhərçi T. , Mehdiyeva V.Z., Quliyev T.S. (2006), Dünyanın iqtisadi və sosial coğrafiyası" "İqtisad Universiteti nəşriyyatı", 464 s.
18. Osmanov İ.S. (2004), MDB dövlətlərinin iqtisadi-sosial coğrafiyası, "BDU nəşriyyatı", 342 s.
19. Soltanova H. (2015), Azərbaycan Respublikasında turizm və onun inkişafı, "AzTU-nun mətbəəsi", 476 s.
20. "Turizm haqqında" Azərbaycan Respublikasının qanunu, 1996

Xarici mənbələr:

1. Bahar O., Kozak M., Turizm ekonomisi, "Anadolu üniveritesi", 201 s.
2. Eralp Z., Genel turizm, "Ankara Üniversitesi", 164 s.
3. Garda B., Temizel M. (2016), Sürdürülebilir turizm çeşitleri, "Selçuk Üniversitesi, Sosyal ve Teknik Araştırmalar", 2016, 103 s.
4. Gökbatan Y., Dünya üzerindeki kültürel varlıkların turizme katkısı, "Sanat & Tasarım" jurnalı, 71 s.
5. Yüzsever İ.C. (2018), Türkiye'nin deniz turizminin ve eğiliminin incelenmesi, "Muğla Sıtkı Koçman Üniversitesi, Muğla, 8 s.

İnternet resursları:

1. https://sptnkne.ws/gt4m
2. https://sustainabledevelopment.un.org/content/documents/16005Azerbaijan.pdf
3. https://tourism4sdgs.org/policy-papers/
4. https://www.e-unwto.org/doi/pdf/10.18111/9789284419876
5. https://www.ntv.com.tr/seyahat/kruvaziyer-turizmindehedef-500-bin-turist,qSMqq6sRGUqQISFezQG46w

6. https://www.stat.gov.az/source/tourism/az/001_9.xls
7. https://www.stat.gov.az/source/tourism/az/005_8.xls
8. https://www.wttc.org/-/media/files/reports/economic-impact-research/regions-2018/world2018.pdf
9. https://www.wttc.org/-/media/files/reports/economic-impact-research/regions-2018/world2018.pdf
10. www.protectedplanet.net

## Cədvəllər siyahısı

**Cədvəl 1.** Azərbaycanın Xəzəryanı ərazilərində havanın yanvar, iyul ayları üzrə və illik orta temperatur göstəriciləri (selsi ilə)......................................................................26

**Cədvəl 2.** Xəzər sahili ərazilərimizdə hündürlük üzrə düşən yağıntıların aylıq və illik miqdarı (mm.).........................................................................................................27

**Cədvəl 3.** Xəzər dənizinə axan iri çayların səciyyələri...............................................28

**Cədvəl 4.** Nəqliyyat sahəsində yaşanan texnoloji yeniliklər və turizmə təsiri............33

**Cədvəl 5.** Azərbaycanın Xəzər sahilindəki əsas sağlamlıq turizm obyetklərinin mövcud vəziyyəti..........................................................................................................47

**Cədvəl 6.** 2013-2017-ci illərdə Xəzər sahili əraziləri əhatə edən iqtisadi rayonlarda mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş əcnəbi turistlərin sayı...........................................................................................................................50

**Cədvəl 7.** Azərbaycanın Xəzər sahilindəki əsas sağlamlıq turizm obyetklərinin mövcud vəziyyəti..........................................................................................................59

## Şəkillər siyahısı

**Şəkil 1.** Səyahətlərin turistik məqsədləri.................................................................14

**Şəkil 2**. Xəzər sahili ərazilərdə əhalinin sıxlığı.........................................................30

**Səkil 3** Azərbaycanın sahilyanı ərazilərində əhalinin sıxlığı......................................37

**Şəkil 4.** 2018-ci ildə beynəlxalq mavi bayraqlı çimərlik sayı (şimal yarımkürəsi ölkələri).........................................................................................................41

**Şəkil 5.** Azərbaycan ərazisində qorunan sahələr (qoruqlar, milli parklar, yasaqlıqlar).....................................................................................................45

**Şəkil 6.** Turizm fəaliyyəti zamanı istifadə olunan nəqliyyat növlərinin payı ...........54